Xalqın qəzeti!

# Xalq qəzeti

№ 178 (30582) 21 avqust 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Cənubi Qafqaz və Azərbaycan amili

*Prezident Putinin Bakıya dövlət səfəri kontekstində*



**Rusiyalı politoloq Sergey Markedonov Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ilə əlaqədar bildirmişdi ki, bu, Moskvanın özünü dünyaya xatırlatmaq fürsətidir. Yəni, Kreml beynəlxalq aləmdən kənarda deyil. Belə nəticəyə gəlmək mümkündür ki, həm Azərbaycanın Rusiya ilə dünya birliyi arasında körpü missiyası var, həm də Cənubi Qafqaz müstəvisində yaşananlar, o cümlədən, Bakı-İrəvan münasibətlərində normallaşma prosesi Moskvanın diqqət mərkəzindədir.**

Görəsən, indiki mərhələdə bu diqqəti aktuallaşdıran nədir? Hansı konkret məqamlar var? Yazımızda bu suallara cavab tapmağa çalışacağıq. Cənubi Qafqaz müstəvisindəki maraqlı qütblərin qarşıdakı fəaliyyətinin hansı məcrada cərəyan edə biləcəyinə dair fikirlərimizi də bölüşəcəyik. Ən əsası, Azərbaycanın bu dolaşıq labirintdəki mövqeyinin hazırkı parametrlərindən söz açacağıq. O parametrlərdən ki, orada balanslılıq, habelə milli və regional maraqların qorunmasında israrlı yanaşma son dərəcə prinsipial əhəmiyyətə malikdir, sabit və dəyişməz xətdir.

(ardı 3-cü səhifədə)

## Dünya Azərbaycanı necə varsa, elə də qəbul edir

### Ölkəmiz etibarlı tərəfdaşlıq, səmimi dostluq və mehriban qonşuluq prinsiplərinə sadiqdir



**Rusiya Azərbaycanın ən böyük müttəfiqi, qonşusu və ticarət partnyorudur. Ölkələrarası, xalqlararası münasibətlərin elə bir sahəsi yoxdur ki, orada hansısa bir problem yaşansın, qarşılıqlı anlaşma, səmimi dostluq və mehriban qonşuluq münasibətlərinə ciddi xələl gətirmiş olsun. Tarixi reallığın özü bizi bir-birimizə möhkəm tellərlə bağlayıb.**

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfərinin xüsusi əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev Bakıda qəbul edilən sənədlərin, ilk növbədə, prezidentlərin Birgə Bəyanatının ikitərəfli münasibətlərin dostluq və müttəfiqlik xarakterini bir daha təsdiqlədiyini önə çəkdi.

Azərbaycan Prezidenti səfərin yekunları ilə bağlı mətbuata bəyanatında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamənin müddəalarının uğurla həyata keçirilməsini ayrıca qeyd etdi: "Ölkələrimiz müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi fəaliyyət göstərir. Bu gün dövlətlərarası münasibətlərin geniş spektrini ətraflı müzakirə etdik. Hətta nümayəndə heyətlərinin tərkibinə nəzər salmaq kifayətdir ki, dövlətlərarası strukturların fəaliyyət sferasının, əslində, nə qədər geniş olduğunu görəsən".

(ardı 4-cü səhifədə)

## Qlobal ekoloji durum böhranlı həddə çatıb



Səhifə ⇨ 8

## Bakıda "Formula–1" hazırlıqları



Səhifə ⇨ 11

## Serbiyanın Qərb şübhələri...



**ABŞ və Avropa İttifaqı Serbiya Baş nazirinin müavini Aleksandr Vulinin Moskvaya son səfərinə sərt reaksiya verib. Buna səbəb A.Vulinin Rusiya kəşfiyyat xidmətlərinə Serbiya rəhbərliyinə kütləvi iğtişaşlar və dövlət çevrilişinə cəhd barədə xəbərdarlıq etdiyinə görə təşəkkür etməsi olub. Vaşinqton ABŞ-nin Serbiyada etirazları qızışdırması ilə bağlı iddiaları "yalan" adlandırıb. Aİ isə Belqrada xəbərdarlıq edib ki, indiki vəziyyətdə Rusiya ilə əlaqələri saxlamaq "Avropa inteqrasiyası prosesi ilə uyğun gəlmir". Bununla belə, Serbiya Prezidenti Aleksandr Vuçiç ölkədəki etirazların Qərb tərəfindən maliyyələşdirildiyi iddiasından geri çəkilmir.**

(ardı 11-ci səhifədə)

## Pentaqon qapını kəsdirib, o isə...

Səhifə ⇨ 3



## Fransa səfiri ermənilərdən də betər ermənidir

**Cənubi Qafqazda gedən proseslərdə hər zaman mənfi rol oynayan, bölgədə davamlı sülhün, əmin-amanlığın və sabitliyin yaranmasına imkan verməyən dövlətlərin önündə, heç şübhəsiz ki, Fransa gəlir. Rəsmi Paris ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri olduğu dövrdə zahirən də olsa, özünü tərəfsiz kimi göstərməyə çalışırdı.**

(ardı 4-cü səhifədə)



## Aqrar sığorta kəndlinin etibarlı himayədarıdır

### 7 ayda fermerlərə 3,25 milyon manat ziyan ödənişi edilib



**İqlim dəyişikliklərinin mənfi təzahürü olan təbii fəlakətlər kənd təsərrüfatına daha çox ziyan vurur. Müşahidələr göstərir ki, hər il minlərlə hektar əkin sahəsi və meyvə bağları müxtəlif təbiət hadisələrinin: leysan yağışları, dolu, qasırğa, fırtına, sel-subasma kimi halların təsirinə məruz qalır. Nəticədə, əkin-biçin adamının minbir əziyyətlə yetişdirdiyi məhsul bir andaca məhv olur. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ekspertləri bildirirlər ki, təbii fəlakətlər nəticəsində iqtisadi itkilərin 63 faizi məhz kənd təsərrüfatının payına düşür.**

(ardı 7-ci səhifədə)

# R.M.Məcidovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Rəşad Museyib oğlu Məcidov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 avqust 2024-cü il**

**Replika**

# Tonoyan oxu atıb, yayı gizlədir

## Ermənistanın keçmiş müdafiə naziri ölkə rəhbərliyini şantaj edir

**Bir lətifədə deyilir ki, itdən nə üçün hürdüyünü soruşurlar, cavabında o, qarşısındakını qorxutduğunu bildirir. Nə üçün quyruğunu buladığını soruşduqda isə it özünün də qorxduğunu deyir. İndi Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan da həmin itin günündədir.**

Bəli, Tonoyan səssizliyi pozub. O, neçə vaxtdır ki, görünmürdü. Hər halda, vəzifəsindən azad edildikdən sonra ortalıqda yox idi. İndi nə üçün “zühur edib”, bu barədə qəti nə isə demək mümkün olmasa da, söylədiklərindən belə nəticə çıxarmaq mümkündür ki, eks nazir oxu atıb, yayı gizlətməklə məşğuldur.

ölkə iqtidarının mövqelərinin sarsılacağını gözləyir? Bəlkə nələrisə danışa biləcəyinə dair mesaj verir? Tam mümkündür. Ancaq hələlik deyək ki, onda sualdan məharətlə yayınmaq bacarığı var. Yəni, jurnalistlər Tonoyandan nəyin dəyişəcəyini soruşurlar, bu məxluq isə yarımçıq cümlələr işlədərək, aləmi bir-birinə qatır. Daha doğrusu, heç



Vəzifədə olduğu dövrdə, daha dəqiq desək, 44 günlük müharibədən əvvəl “yeni ərazilər uğrunda yeni müharibə” şüarı ilə sərsəmləyən D.Tonoyanın, həmçinin bu caninin rəhbərlik etdiyi ordunun sonradan hansı acınacaqlı duruma düşdüyü hər kəsə yaxşı məlumdur. Savaş rüsvayçılığı nazirin hərbi karyerasının üzərindən böyük xətt çəkdi. Onun düşdüyü rüsvay durum isə bir sıra başqa məqamları üzə çıxartdı...

Ermənistanın sabiq müdafiə naziri 2021-ci ilin sentyabrından həbsdə olub. Sonradan 15 milyon dram girov müqabilində sərbəst buraxılıb. O, sursat tədarükü prosesində sui-istifadə halları ilə bağlı cinayət işi üzrə ittiham olunub. Bu işdə Ermənistanı silahla təmin edən şirkətin rəhbəri David Qalstyan və Silahlı Qüvvələrin Baş Qərargah rəisinin keçmiş müavini Stepan Qalstyan da günahkar bilinib. Yəni, baş nazir Nikol Paşinyan müharibə rüsvayçılığında Tonoyanı və ətrafını “günah keçisi” kimi görüb. Əlbəttə, bu mənada ikincinin indi konsprioloji tərzdə danışmasında məntiq var. Çünki ali baş komandan olaraq Nikol keçmiş müdafiə nazirindən az təqsirkar deyil. Elə Tonoyan da dolayısı ilə məhz bunu vurğulayır. Amma düşüncəsini başqa fikrində daha dolğunluğu ilə açıqlayır ki, məsələ barədə yazımızın sonunda bəhs edəcəyik.

Bəli, baş nazir Paşinyanın nəyə görə öz komandasının üzvü olan ona qarşı nalayiq tərzdə davrandığına dair sualı cavablandıran Tonoyan bildirir ki, əvvəlki bəyanatlarından imtina etmir, hər sözünün arxasındadır: “Mən bu barədə çox ətraflı düşündüm. Səbəbini bilirəm. Amma demək istəyirəm ki, açıqlamalarımdan əl çəkmirəm və dediyim hər sözün arxasındayam. Amma xahiş edirəm, vəziyyət daim dəyişir, ona görə də mən buna hazır olanda danışarıq”.

Vəziyyət daim dəyişir. Tonoyanın kospriologiyası da elə bu fikirdir. O, hazır olanda danışacağını deyir. Görəsən, indi niyə danışmır? Yəni ortalığa çıxıbsa, nə üçün təfərrüatları açıqlamır? Yoxsa hazırkı

baş çıxarmadığı məsələlərdən dəm vurur. Keçmiş nazir deyir ki, Ermənistanın ciddi təhlükəsizlik problemləri var və həmişə də olub: “Bu məsələlər öz həllini tapmalıdır. Mən həm iqtidara, həm də müxalifətə bəyan etdim ki, bu problemlərin həllində iştirak etməyə hazıram. Amma siyasi məqsədlər üçün yox”.

D.Tonoyan siyasətə qoşulmaq arzusunun, hələlik belə bir istəyinin olmadığını deyir. Düşünmək mümkündür ki, adam həm oxu atıb yayı gizlətməklə ölkə iqtidarını, vaxtilə təmsil olunduğu komandanı şantaj edir, təfərrüatları dilə gətirməyib, təhlükəsizlikdən söz açanda isə Ermənistanın yox, məhz özünün təhlükəsizliyinin qayğısına qalır. O, eyni zamanda, həyasızcasına jurnalistləri barəsindəki iş üzrə açıq məhkəmə iclaslarının keçirilməsini tələb etməyə çağırır: “Mən özüm bunu tələb edirəm. Siz də tələb edin”.

Ancaq sabiq müdafiə naziri barəsindəki məhkəmə işininin özəlliyini də vurğulayır. Buna görə bəzi proseslərin bağlı qapılar arxasında keçirilməsinə təbii yanaşdığını deyir. Habelə o, məhkəmənin yeni ekspertizalar təyin edəcəyinə ümid bəslədiyini bildirir. Keçmiş nazir, həmçinin, orduda istifadə edilən silahların alınmasına həssas yanaşıldığını, raketlərin istifadəyə yararlı olduğunu da diqqətə çatdırır: “Mən bunu tam məsuliyyətimlə bəyan edirəm”.

İndi necə başa düşək? Belə çıxır ki, 44 günlük müharibə müddətində Azərbaycana atılan raketlərin partlamamasına görə günahkar N.Paşinyandır? Bəlkə, Nikol gedib raketləri qəsdən xarab edib? Suallar çoxdur. Tonoyan isə görünür, onlara cavab verə bilməyəcək. Həm də ona görə cavab verə bilməyəcək ki, “demokrat” Paşinyanın indidən onun səsini kəsmək üçün hərəkətə keçəcəyi şübhəsizdir. Axı digər siyasi opponentlərinə münasibətdə də belə edib.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Ölkəmiz BRICS-ə daxil olmaq istəyir

**Azərbaycan BRICS-ə daxil olmaq üçün rəsmi müraciət edib.**




Bunu mediaya açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib.

Qeyd edək ki, hazırda 9 üzvü olan BRICS 2006-cı ildə yaradılıb (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirlikləri). BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.

Xatırladaq ki, bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını dəstəkləyib.

**XQ**

# Baş prokuror Xətai sakinlərini dinləyib



**Dünən Baş prokuror Kamran Əliyev Xətai Rayon Prokurorluğunda Bakının Xətai rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Vətəndaşların müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

**XQ**

# Bərdədə vətəndaş qəbulu

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev avqustun 20-də Bərdə şəhərində yerləşən Telekommunikasiya Qovşağında vətəndaşları qəbul edib.**

Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Goranboy, Xocalı, Xocavənd və Laçın rayonları sakinlərinin qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb.

Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

**XQ**



# Azərbaycan–Rusiya səhiyyə əməkdaşlığı müzakirə olunub



**Azərbaycanın Səhiyyə Nazirliyində Rusiyanın səhiyyə naziri Mixail Muraşko ilə görüş keçirilib. Görüş Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəmizə dövlət səfəri çərçivəsində baş tutub.**

Səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla inkişaf etdiyini vurğulayıb. İkitərəfli əlaqələrin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi də qeyd edilib: “Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasındakı dostluq əlaqələri bütün sahələrdə sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir. İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçkoya “Dostluq” ordeni təqdim edilməsi bunun əyani sübutudur”.

Rusiya ilə Azərbaycan arasında səhiyyə və tibb təhsili sahəsində səmərəli əməkdaşlığın mövcudluğunu qeyd edən Mixail Muraşko İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının əhəmiyyətini vurğulayaraq deyib: “Beynəlxalq reytinqdə ən yaxşı Rusiya tibb universitetinin ilk filialının məhz Azərbaycanda açılması Prezident İlham Əliyevin dəstəyi və Azərbaycanın Birinci vitse-prezidenti, Seçenov Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyevanın təşəbbüsü sayəsində reallaşıb”.

**XQ**

# Hərbi Prokurorluq və DSX-nin Zəngilan görüşü

**Ümummilli lider Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar Zəngilan rayonunda Hərbi Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları şəxsi heyətlə birgə tədbir keçiriblər.**



General-mayor Azad Abdullayev, Hərbi prokurorun böyük köməkçiləri Firad Əliyev, Fərəc Sayılov, Qubadlı hərbi prokuroru Elşən Mürsəlov və başqaları çıxış edərək Ulu öndərin misilsiz xidmətlərindən danışıb, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə həyata keçirilmiş köklü islahatlardan, qazanılmış uğurlardan bəhs ediblər.

Sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən söz açan tədbir iştirakçıları ətraf mühitin daha da sağlamlaşdırılmasının əhəmiyyətini vurğulayıblar.

Sonda iştirakçılar tərəfindən ağaclar əkilib.

**XQ**

# Cənubi Qafqaz və Azərbaycan amili

(əvvəli 1-ci səhifədə)



Bəli, Rusiya geosiyasi rəqabətdən uzaq deyil və bu rəqabət düzənində öz şərtləri ilə çıxış edir. Deməli, S.Markedonovun baxışını yalnız onun şəxsi düşüncə məhsulu kimi dəyərləndirmək olmaz. Bəzi məqamlara diqqət yetirəndə bütün daşların yerinə oturduğunu görürük. Məsələn, Rusiyanın dövlət agentliyi TASS Putinin Bakıya səfəri ərəfəsində yaydığı açıqlamada bildirmişdi ki, Moskva Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün kömək göstərməyə hazırdır. Daha doğrusu, söhbət Bakı–İrəvan normallaşmasına yardımın davamına hazır olmaqdan gedirdi. Xəbərdə o da vurğulanmışdı ki, "əsas vəzifələr sülh müqaviləsinin imzalanması, Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası prosesinin təşviqi, məlum 2020-2022-ci illərin ən yüksək səviyyəli üçtərəfli sazişləri əsasında regionda nəqliyyat, logistika və iqtisadi əlaqələrin bərpasıdır".

Qeyd edək ki, S.Markedonov bir məqama da diqqət yetirmişdi. Söhbət Ukrayna hərbi birləşməsinin Kursk vilayətinin içərilərinə doğru irəliləmələrindən gedir. Politoloq bunu müharibənin Rusiya torpaqlarına çatması kimi dəyərləndirmişdi. Məhz belə bir məqamda Putinin Bakıya gəlişi maraq doğurmaqdadır. Moskvanın başlıca vurğunu Azərbaycan–Ermənistan normallaşmasına qoyması da həmçinin.

Durumu necə başa düşək? Rusiya Kurskun heyfini Cənubi Qafqaz müstəvisindəmi almağı düşünür? Yaxud Moskva Qərbə bu regiondamı əzələ nümayişi fikrindədir? Yoxsa, Rusiya Kursk uğursuzluğu fonunda beynəlxalq aləmə hələ də ayaqda olduğunun, heç bir məsələdə güzəştə getmədiyinin və ya getməyəcəyinin mesajınımı verir?

Daşlar yerinə V.Putinin Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata birgə bəyanatında səsləndirdiyi fikirlərlə də oturur. Rusiya Prezidenti dövlətimizin başçısı ilə görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin hazırkı vəziyyətinə diqqət yetirdiklərini açıqladı: "Vurğulayım ki, Rusiya gələcəkdə də Azərbaycan–Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək edəcək. Həmçinin hələ Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla, sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazırıq".

Bəli, V.Putinin bu fikirləri TASS-ın onun Bakıya səfəri ilə bağlı açıqladığı prioritetlərin aktuallıq dərəcəsinin təsdiqidir. Eyni zamanda, Markedonovun bildirdiklərinin ciddiliyi də sübutunu tapır. Əlbəttə, Rusiya dövlət başçısının bu məsələ ilə bağlı ölkəmizdə səsləndirdiyi daha bir fikrin üzərində də dayanmalıyıq: "Bizim mövqeyimiz ondan ibarətdir ki, Cənubi Qafqazda sülh və sabitlik bu regionun bütün dövlətlərinin və xalqlarının köklü maraqlarına tam şəkildə cavab verməlidir".

Xatırladaq ki, bu ilin iyununda ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn əvvəl Ermənistana, sonra Azərbaycana səfər etmişdi. Onun səfər ərəfəsində dilə gətirdiyi başlıca fikir bu idi: Bakı və İrəvan arasında sülh Cənubi Qafqazın Rusiyadan asılılığını aradan qaldırmalıdır. Başqa sözlə desək, sülh mühiti elə bir şərait formalaşdırmalıdır ki, həmin şəraitin gətirəcəyi fayda Moskvanın bölgədən sıxışdırılmasını təmin etsin.

Yəni ki, C.O'Brayn ABŞ-nin Rusiyanı region üçün lüzumsuz dövlət qiyafəsində gördüyünü açıqlamışdı. Kollektiv Qərbin baxışı bundan ibarətdir. V.Putin, ümumilikdə, Rusiya rəhbərliyi belə düşüncənin əleyhinədir. Rusiya Prezidentinin "regionun bütün dövlətlərinin və xalqlarının köklü maraqları" məntiqi fikrimizin təsdiqidir. Nəzərə alaq ki, köklü maraq baxımından Rusiya Cənubi Qafqaza daha bağlıdır, nəinki hansısa Qərb dövləti, o cümlədən ABŞ. Əlbəttə, regiona tarixən bağlı başqa ölkələr də var. Məsələ üzərində dayanacağıq. Ancaq əvvəlcə aşağıdakı suala cavab tapaq.

Azərbaycanın mövqeyi nədən ibarətdir? Sual, müəyyən mənada, ritorikdir. Çünki cavab bəllidir. Rəsmi Bakı hələ əvvəldən "region region ölkələri üçündür" şüarını irəli sürüb. Ölkəmizin və qardaş Türkiyənin ciddi şəkildə dəstəklədiyi "3+3" platforması ideoloji mənbəyini bu şüardan götürür. O platforma ki, orada Azərbaycan və Türkiyə ilə yanaşı, Rusiyanın və İranın da aktivliyi hiss olunur. Ermənistanın da müstəvidə təmsilçiliyi var, amma kağız üzərində. Ölkə Qərbin regional maraqlarının təminatçısı funksiyası ilə, faktiki olaraq, "3+3"ü boykot edir. O ki qaldı, Cənubi Qafqazın daha bir ölkəsi olan Gürcüstana, onun bu platformada iştirakı arzulanır. Hərçənd rəsmi Tbilisi Rusiya ilə Cənubi Osetiya və Abxaziya məsələsindəki ziddiyyətlər səbəbindən mövcud müstəvidəki iştirakda könülsüzdür. Təbii ki, Gürcüstanın mövqeyi anlaşılandır.

Əlqərəz, Azərbaycan "region region ölkələri üçündür" xəttinə sadiqliyini hər zaman sübuta yetirib və əslində, Prezident İlham Əliyevin Putinlə birgə mətbuat konfransında səsləndirdikləri fikrimizin təsdiqidir. Dövlətimizin başçısı Rusiya Prezidenti ilə məhdud formatda keçirilən görüşdə regional təhlükəsizliklə bağlı məsələləri müzakirə etdiklərini diqqətə çatdırıb. Cənab Əliyevin bildirdiklərində ən başlıca məqam isə onun 2023-cü ilin sentyabrından (lokal xarakterli anti-terror tədbirlərindən – red.) sonra regionda tamamilə yeni şəraitin yarandığını vurğulamasıdır: "Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Təbii ki, yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır".

Əlbəttə, Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün qərarlaşması məntiqinin Rusiya ilə yanaşı, Türkiyə, İran və Qərb seqmenti də var. Yəni, bunun üçün Moskva ilə Bakı arasında sıx qarşılıqlı fəaliyyət lazımdırsa, eyni fəaliyyətin Türkiyə və İranla, o cümlədən, müəyyən mənada Qərblə də müştərəkliyi amili vurğulanmalıdır. Nəzərə alaq ki, sonra hansı mövqe tutmasından asılı olmayaraq, Ermənistan ilk dəfə Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü və suverenliyini məhz Qərb platformasında tanımışdı. Onu da nəzərə alaq ki, Rusiyadan zaman-zaman eşidilən bəyanatlarda Ermənistanın məhz Qərbyönümlü fəaliyyətinin ölkənin Qarabağ məsələsində yekun məğlubiyyəti kimi dəyərləndirildiyinin şahidi olmuşuq. Azərbaycan isə hansı platformada olursa-olsun, nəyi qazanıbsa, yalnız öz gücü, rasional yanaşması nəticəsində qazanıb. Prezident İlham Əliyevin diplomatik məharəti, erudik təfəkkür tərzi ölkəmizin uğurlarında həlledici rol oynayıb və oynamaqdadır.

Ancaq indi Qərb iki, hətta bir il öncəki Qərb deyil. Əslində, onun sülh təşəbbüslərinin səmimiyyətinə hər zaman şübhə amili hakim kəsilmişdi. Son dövrlərdəki yanaşmalar, xüsusən Ermənistanın silahlandırılması, obrazlı desək, maskaların cırılmasıdır. Əvvəldə Qərb–Rusiya rəqabətindən söz açmışdıq. Hazırda birinci bu rəqabət müstəvisində daha qətiyyətli görünür. Qətiyyət isə özünü Ermənistanın anti-sülh xəttində göstərir. Məsələn, ölkə rəhbərliyi normallaşmanın canını tapşırmış ATƏT-in Minsk qrupu formatından dəm vurur. Yəni, erməni iqtidarı əsl mahiyyətdən yayınmaq üçün ağlına və ağzına gələni danışır. Belə bir şəraitdə Azərbaycan sırf öz milli maraqlarının diktə etdiyi şərtlər daxilində davranmalıdır, davranır və davranacaqdır.

Bilavasitə Bakının İrəvanla sülh gündəminə gəlincə, bu gündəmin pozitiv ovqatını Ermənistan hərbi birləşmələrinin işə saldıqları silah səsləri korlamaqdadır. Məlum olduğu kimi, erməni ordusunun hissələri Kəlbəcərdə mövqelərimizi atəşə tutmaqla məşğuldurlar. Yeri gəlmişkən, onlar Putinin Bakı səfəri günlərində Naxçıvan istiqamətində səssizliyi pozdular. Naxçıvanın regional kommunikasiyalar baxımından strateji əhəmiyyəti böyükdür. Görəsən, Qərb hansı mesajı verirdi? Bəlkə atəş səsləri regional kommunikasiyaların açılması istəklərinə qarşı demarşdır? Hərçənd, İrəvanın qeyri-konstruktivliyi səbəbindən həmin istəyin məğzinin bir qədər dəyişdiyini deyə bilərik. Məsələyə ətraflı izah verək.

Qeyd edək ki, Azərbaycan 44 günlük müharibəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda yer alan Naxçıvana yol məsələsində israrlı olduğunu nümayiş etdirib. Ölkəmiz hər zaman bildirib ki, sözügedən yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslanmalıdır. Yəni, ərazidə hansısa sərhəd və gömrük nəzarəti tətbiq edilməməlidir. Ermənistan və havadarları isə ərazi bütövlüyü və suverenlik məntiqini, habelə "Dünyanın kəsişməsi" avantürasını ortaya ataraq, bölgədə erməni dominantlığı formalaşdırmağa çalışırlar. Əlbəttə, bu dominantlığın anti-Rusiya təmayülü var ki, məsələ barədə söz açdıq.

Ancaq sərt reallıq və haqqında söz açdığımız istəyin dəyişməsi məntiqi belədir: rəsmi İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı tamamilə heçə sayırsa, həmin sənədlə üzərinə götürdüyü daha vacib öhdəliyi yerinə yetirmək istəmirsə (digər öhdəliklərə də əməl etməmişdi – red.), bununla da regional kommunikasiyaların açılmasına maneçilik törədirsə, o zaman sülh müqaviləsi həmin məsələ gerçəkləşmədən imzalanmalıdır. Nəticədə Ermənistan dalan vəziyyətində qalacaq.

İndi eşidilən atəş səsləri onu göstərir ki, rəsmi İrəvan və havadarları məsələnin belə qoyuluşu ilə də razı deyillər. Daha dəqiq desək, güc yolu ilə dalandan çıxmaq əzmindədirlər. Hazırda regional təhlükəsizliyə ən böyük təhdid məhz budur. Əlbəttə, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov həmin təhdidi "sabotaj" adlandırmaqda sərbəstdir. Ola bilər, vəziyyəti dramatikləşdirmək istəmir.

Bəli, Kremlin baş diplomatının Putinin Bakı səfəri ərəfəsində Rusiyanın "Birinci kanalı"na müsahibəsində bildirdikləri də adi qarşılana bilməz: "Biz sülh müqaviləsinin tezliklə bağlanması və kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təəssüf ki, Ermənistanın Sünik rayonundan keçən kommunikasiyalara gəldikdə, məhz Ermənistan rəhbərliyi baş nazir Nikol Paşinyanın imzaladığı razılaşmanı sabotaj edir. Belə bir mövqenin mənasının nədən ibarət olduğunu dərk etmək çətindir. Mən əminəm ki, üçtərəfli sənədlər çərçivəsində qoyulan özül tam həcmdə aktuallığını qoruyub saxlayır".

Göründüyü kimi, S.Lavrovun müsahibəsində Rusiya Prezidentinin fikirlərinin, eləcə də TASS-ın açıqladığı səfər gündəliyinin, habelə politoloq S.Markedonovun bildirdiklərinin prioritetlik trayektoriyası yenidən vurğulanır. Bu vurğulanma Ermənistan üçün mesajdır. Mesajın məhz Bakıdan səslənməsi üzərində dayanaraq, Prezident İlham Əliyevin "Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır" bəyanatının aktuallığına diqqət yetirək. Ermənistanın Qərbə arxalanaraq, gerçəkləşdirdiyi təxribatların təkcə ölkəmizə deyil, ümumən Cənubi Qafqaz regionunda maraqlı olan və bölgəyə tarixən bağlılığa malik ölkələrə, o cümlədən Rusiyanın özünə qarşı yönəldiyi reallığını düşünək.

Deməli, ehtimal etmək mümkündür ki, V.Putinin ölkəmizə səfəri bu reallığa qarşı Bakı–Moskva cəbhəsini aktiv saxlamaq yolundakı mühüm mesajdır. Onu da ehtimal etmək mümkündür ki, bu mesaj Türkiyəni və İranı da hərəkətə gətirəcək. Hər halda, bu iki ölkə Qərbin Cənubi Qafqazda ikinci Ukrayna yaratmaq istəklərinin reallaşmasını istəmir. Onlar, eyni zamanda, regional kommunikasiyaların açılmasının Qərbin erməni avantürizmini diri saxlamaq niyyətlərinə xidmət göstərməsini da arzulamırlar. Türkiyə ilə bağlı hər şey aydındır, Ankara hər zaman ölkəmizi dəstəkləyir. Burada əsas qərar verən tərəf İran olmalıdır. Yəni, ölkə öz qəti mövqeyini müəyyənləşdirməlidir.

Sonda V.Putinin Bakıda səsləndirdiyi bir fikrə də diqqət yetirək. Rusiyanın dövlət başçısı Bakı–İrəvan münasibətlərinin normallaşmasından danışarkən, sabiq Sovet İttifaqı vaxtından qalan müvafiq sənədlərin nəzərə alınmağa, Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyasından söz açmışdır. Bəli, həmin sənədlər Rusiyadadır və bu məsələ ilk dəfə deyil ki, gündəmə gəlir. Yəni, əvvəllər də Kremlin təmsilçiləri, xüsusən də Xarici işlər naziri S.Lavrov Moskvanın nizamlama prosesində iştirakından danışarkən, real xəritələrin Rusiyada olduğunu vurğulamışdı. Elə isə sual olunur: real xəritələrdə Ermənistan adlı dövlət varmı və ya hansı formada var? Bu sual da ritorik olduğundan əlavə şərhə ehtiyac duymuruq. Sadəcə bunu deyirik: düşünmək növbəsi Ermənistanındır.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

---

Replika

# Pentaqon qapını kəsdirib, o isə...

## İranın Ermənistanla sərhədində vəziyyət nəzərdə tutulur



**ABŞ-nin bölgəyə hərbi müdaxiləsinin sübutları göz çıxarır. İİR Xarici İşlər Nazirliyinin nümayəndəsi Nasir Kənani isə "feyk-xəbərlər"dən dəm vurur. Yerli media mənsubları ilə görüşündə ABŞ-nin Ermənistana radar və zenit avadanlığı verməsi faktını şərh etməkdən yayınan İranın diplomatiya idarəsinin rəsmi sözçüsü bunun əvəzində Ermənistan və İran arasında dostluq, konstruktiv və yaxın münasibətlərin olduğunu vurğulamağa tələsib. "Armenpress" xəbər verir ki, İran XİN-nin nümayəndəsi öz çıxışında Ermənistan və İranın regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi üçün birgə səylər və əməkdaşlığın inkişaf etdirilməsi üçün ortaq istəklərini, habelə iqtisadi-ticarət inkişaf və tərəqqi naminə ümumi sərhədləri qorumağın vacibliyindən danışıb.**

ABŞ-nin Cənubi Qafqaza hərbi-siyasi müdaxiləsinə isə Kənani özünəməxsus tərzdə münasibət ildirib: "Biz ölkələr arasında ikitərəfli məsələlərə və ya üçüncü ölkələrlə münasibətlərə münasibət bildirmirik və ya onlara müdaxilə etmirik. Amma, ümumilikdə, ABŞ-nin bölgədəki roluna neqativ yanaşırıq. Bölgədəki hərbi gərginlik atmosferi ABŞ hökumətinin müxtəlif ölkələrdəki sabitliyi pozmağa yönəlik fəaliyyətlərindən qaynaqlanır".

Bu əsnada, o, Pentaqonun İrəvana silah-sursat və şəxsi heyətlə dolu iki hərbi təyyarəsinin enməsi faktını təkzib edərək deyib: "ABŞ ordusunun Zəngəzura girməsi" barədə xəbər Azərbaycan tərəfinin növbəti dezinformasiyasıdır. Amerika hərbçilərinin sərhəddə yerləşməsi və s. ilə bağlı "bir neçə ağılsız" məqalə yenidən ifşa olunub. Azərbaycanın "provakasiyası" iflasa uğradı".

Beləliklə, deyilən olayla bağlı Azərbaycan mediasının ortaya qoyduğu foto-video faktlara Vaşinqtonun hələ də reaksiya bildirməməsi, yalnız İrəvandakı səfirinin dili ilə dolayısı bir cavab verməsi fonunda İran diplomatiyası nəinki susmaqda davam edir, hətta gözəgirən sübutları görməzdən gəlir. Bizim üçün bunun səbəbi nə qədər maraqlıdırsa, rəsmi Tehranın sərgilədiyi buqələmun mövqeyi o dərəcədə müəmmalı və sual doğurucudur. Əslində, əsl "provakasiya" bu susqunluq və bu mövqesizlikdir.

"Çünki feyk xəbər yaymaq bir şeydir, ona refleksin yaranmaması ayrı şeydir. Bu səhvlərin üzərindən maraqlı güc mərkəzləri informasiyanı hərtərəfli analiz edir və üzərində işləyirlər. Onda mötəbərlilik axtarırlar. Bu, ilk belə hal deyil".

Daha hansı hallar baş verməlidir ki, Tehran İrəvanın ona qarşı planlaşdırılan böyük oyunun "piyadası" olduğunu qəbul etsin? ABŞ ordusunun timsalında NATO kandarına qədər gəlib çıxıb, amma İran XİN hələ kimlərinsə araşdırmalarının nəticələrini gözləməkdədir. Deyəsən, bir qədər çox oldu...

*İ.HƏSƏNQALA*
*XQ*

# Dünya Azərbaycanı necə varsa, elə də qəbul edir

(əvvəli 1-ci səhifədə)

İki dövlət arasında 2022-ci il fevralın 22-də imzalanmış sənədi xatırlatmağımız yetər ki, münasibətlərin miqyasını və dərəcəsini təsəvvürümüzdə canlandıra bilək. O vaxt Moskvada Azərbaycan və Rusiya prezidentləri tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə söykənən dövlətlərarası münasibətləri keyfiyyətcə yeni və ən yüksək fazaya – müttəfiqlik səviyyəsinə qaldırdı.

Bugünədək ölkələrin rəhbərləri arasında çoxsaylı qarşılıqlı səfərlər, 260 sənədi əhatə edən geniş hüquqi baza və mütəmadi qaydada keçirilən iqtisadi forum və konfranslar ikitərəfli münasibətlərin inkişaf dinamikasını şərtləndirir. Axı, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Rusiyanın Azərbaycanın şanlı Qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələnən İkinci Qarabağ müharibəsini başa çatdıran 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatın imzalanmasındakı rolunu necə danmaq olar? Bunun əhəmiyyətini azalda bilmərik.

* * *

Son dörd ildə Cənubi Qafqazın şəriksiz liderinə çevrilmiş Azərbaycanın qazandığı uğurlar genişmiqyaslı və davamlı islahatlarla xarakterizə olunur. Dövlətimizin başçısı tərəfindən "tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" kimi qiymətləndirilən dərin islahatlar kursu sosial-iqtisadi, hüquq-məhkəmə, siyasi, struktur və kadr istiqamətlərini əhatə etməklə çoxşaxəli və dinamikdir. Əslində, bunlar nəticə etibarilə ölkəmizin daxili siyasi uğurlarını şərtləndirir, İqtidar–Xalq–Ordu formatında səfərbər olunmuş cəmiyyətin həmrəyliyini daha da möhkəmləndirir. Məhz bunun nəticəsində daxili siyasətin davamı, həm də onun tamamlayıcı halqası olan xarici siyasət istiqamətində də Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi getdikcə güclənməkdədir.

İndi Azərbaycanla hamı hesablaşır. Hətta dünənədək bizi müstəqil dövlət kimi qəbul etməyə meyilli olmayanlar bu gün enerji daşıyıcıları üzrə partnyorlarımıza çevrilirlər. Bu aspektdən yanaşdıqda Avropa İttifaqı Ukrayna vasitəsilə Rusiya qazının alınmasından tam imtina etdikdən sonra bu sahədə boşluğu doldurmaq üçün Azərbaycanla əməkdaşlıq cəhdlərini artırmağa çalışması təsadüfi sayılmamalıdır. Azərbaycan hasil etdiyi təbii qazın Ukrayna ərazisindəki qaz kəmərləri vasitəsilə Avropaya nəqlini nəzərdən keçirdi. Əlbəttə ki, belə bir təklif Avropa İttifaqı və Ukrayna tərəfindən səsləndirilmişdi.



Qarşılıqlı faydalı, Azərbaycan üçün isə gəlirli layihə hesab olunan bu proqramın reallaşması yalnız Ukraynanın maraqlarına söykənir. Yəni, Aİ üzvü olan ölkələrlə enerji tərəfdaşlığımız heç bir halda Azərbaycanın Rusiya və Ukrayna ilə yaxın münasibətlərinə xələl gətirə bilməz. Çünki Prezident İlham Əliyevin istər regional, istərsə də beynəlxalq arenada yürütdüyü siyasəti, balanslaşdırılmış diplomatiyası Azərbaycanın bir tərəfdən Rusiya ilə düzgün qurulmuş münasibətləri uğurla davam etdirməsinə, digər tərəfdən ölkəmizin qarşısında duran tarixi vəzifələrin həllinə nail olmasına münbit siyasi şərait yaradır. Bakı hamı ilə açıq və səmimi münasibətlər qurmaqda, bütün sahələr üzrə əməkdaşlıq etməkdə maraqlıdır. Burada inam və etibar məsələsi də az rol oynamır. Azərbaycan məhz arxalana, güvənilə bilən tərəfdaş olduğunu konkret addımları və işi ilə sübuta yetirib. Artıq ölkəmiz bütün partnyorları, hətta bədxahları tərəfindən də bu amplua-da, yəni, necə varsa, elə də qəbul olunur.

* * *

Prezident İlham Əliyevin son 21 il ərzində həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq coğrafiyada mövqeyinin möhkəmlənməsi danılmaz həqiqətdir. Bunu Bakıya rəsmi səfərə gələn xarici dövlət və hökumət başçıları da etiraf edirlər.

Rusiya Prezidenti Vladimir Putin iki gün əvvəl Bakıya dövlət səfərinin yekunlarına dair mətbuata verdiyi açıqlamasında da bu amili xüsusi vurğulaması təsadüfi deyildi: "Aparılan danışıqlar zamanı biz qarşılıqlı fəaliyyətimizə dair məsələlərin ən geniş spektrini ətraflı, işgüzar şəraitdə müzakirə etdik. Qəbul edilən Birgə Bəyanatda ikitərəfli əlaqələrin bütün kompleksi üzrə gələcək dinamik inkişafın yeni genişmiqyaslı vəzifələri qarşıya qoyuldu. Bu gün imzalanan sənədlər də onların həllinə kömək edəcək".

İkitərəfli danışıqlarda qarşılıqlı faydalı iqtisadi-ticari əməkdaşlığın inkişafına diqqət yetirildiyini bildirən Rusiya lideri bunu qanunauyğunluq kimi dəyərləndirdi: "Çünki Rusiya və Azərbaycan bir-biri üçün mühüm iqtisadi tərəfdaşlardır".

Prezident İlham Əliyevin də Rusiya ilə münasibətlərə xüsusi diqqət yetirməsi həmişə hiss olunub. Azərbaycan və Rusiya arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişafı dövlət başçıları arasında formalaşmış, səmimiyyətə və dostluğa söykənən şəxsi münasibətlərin müstəsna rol oynadığı mütləq qeyd olunmalıdır. Siyasi bacarığı, diplomatik fəhmi ilə qazandığı statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunu həyata keçirərkən, yeri gələndə, prinsipiallıq və qətiyyət nümayiş etdirir.

Azərbaycan liderinin müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblərin təmsilçiləri tərəfindən də qəbul edilir və müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzləri ilə uyğun məsafədən davranması, düzgün mövqe seçməsi, ikitərəfli münasibətlərdə qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə loyal münasibətin formalaşmasını şərtləndirən amillərdəndir. Bu amil neçə illərdir ki, rəsmi Bakının konkret əməllərində özünü büruzə verib. Təməlində qarşılıqlı hörmət, milli maraqlardan çıxış edən müstəqil siyasət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanan Bakı–Kreml münasibətləri zamanın sınağından üzüağ çıxıb. Buna misal olaraq, 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş qərargah rəisləri komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimov ilə NATO Hərbi komitəsinin rəhbəri, general Peti Pavelin, 2018-ci ilin aprel və dekabr aylarında general Gerasimov ilə NATO-nun Avropadakı birləşmiş hərbi qüvvələrinin baş komandanı Kertis Skaparatti, 2019-cu ilin iyul ayında Rusiyanın ali hərbi rəhbərliyi ilə NATO-nun Avropadakı Müttəfiq qüvvələrinin ali baş komandanı Tod Uolters arasında və nəhayət, 2019-cu ilin noyabr ayında Rusiya Müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimov və NATO-nun Hərbi komitəsinin sədri, Aviasiya baş marşalı Stüart Piç arasında görüşlərin Bakıda keçirilməsini göstərə bilərik. Bir-birinə əks hərbi alyanslara mənsub iki ölkənin yüksək çinli şəxsləri arasında görüşü təşkil edən Azərbaycan rəhbərliyi bununla sülhə nə qədər açıq olduğunu nümayiş etdirir.

Bəli, Azərbaycan qucağını sülhə açıb. Bu zaman hətta keçmiş umu-küsüləri unudaraq yeni dövrün çağırışlarına səs verir, hamı ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirir. Müharibənin alovuna bürünmüş Ukraynanın istər rəsmi, istərsə də qeyri-rəsmi dairələri Azərbaycanın yürütdüyü xarici siyasəti digər ölkələrə nümunə göstərirlər. Onlar Prezident İlham Əliyevin uzaqgörən diplomatik səyləri nəticəsində Azərbaycanın Qərblə Rusiya arasında münaqişə arenasına çevrilmədiyini gözəl anlayırlar. Bakının milli məqsədlərə tam nail olduğunu qeyd edən ukraynalı siyasətçilər bunu yüksək qiymətləndirirlər. Təqdirədicidir.

Bəli, Azərbaycan artıq dünyada dialoq məkanı, Bakı isə qlobal çağırışlar tribunası kimi tanınır. Ölkəmiz yaxın qonşuları, Xəzər hövzəsinə daxil olan dövlətlərlə, eləcə də Ukrayna ilə açıq, səmimi münasibətlərini qoruyub saxlayır. Bakı bunu dəfələrlə bəyan edib ki, Rusiya–Ukrayna qarşıdurmasının sülh yolu ilə həllində öz imkanlarından istifadə etməyə, barışıq üçün vasitəçi olmağa hazırdır. Bu xoşməramlı jestin Kremlin indiki sahibinin məmnunluqla qəbul etməsini onun adekvat reaksiyası sübuta yetirir: "Bizim mövqeyimiz ondan ibarətdir ki, Cənubi Qafqazda sülh və sabitlik bu regionun bütün dövlətlərinin və xalqlarının köklü maraqlarına tam şəkildə cavab verməlidir. Sonda bir daha vurğulamaq istərdim ki, biz səfərin yekunlarından tamamilə məmnunuq. Əminəm ki, bu gün aparılan danışıqlar və əldə olunan razılaşmalar Rusiya-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcək".

Rusiya Prezidenti Vladimir Putinin qeydlərimizə təkan verən açıqlamasını onun səmimi dialoq atmosferində keçən Bakıya ikigünlük dövlət səfərinin məntiqi yekunu saya bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Fransa səfiri ermənilərdən də betər ermənidir

(əvvəli 1-ci səhifədə)

Həmin dövrdə mövcud vəziyyət – status-kvo Ermənistan kimi Fransanı da qane etdiyindən, eyni zamanda, Azərbaycanı tamamilə itirmək istəmədiyindən fransızlar necə deyərlər, çox da dərinə getmək istəmirdilər. Bununla belə, həlledici məqamlarda, məsələn, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı BMT Baş Assambleyasında keçirilən səsvermələrdə ölkəmizin ərazi bütövlüyünün əleyhinə səs verirdilər. Həmçinin, Fransa Azərbaycanın öz ərazilərini hərbi yolla azad etməsinin qəti əleyhinə idi. Onlar məsələnin sülh yolu ilə həllinə çağırış etməklə, əslində, ölkəmizi işğalla barışmağa çağırırdılar.



Qırx dörd günlük Vətən müharibəsi zamanı Fransanın, necə deyərlər, simasından maskası düşdü. Paris bütün kartları açaraq, masa üzərinə qoydu. Həmin günlərdə rəsmi Paris Azərbaycan Ordusunun Zəfər yürüşünü dayandırmaq üçün əlindən gələni etdi. Obrazlı desək, Fransa, bütün cəbhəboyu ölkəmizin üzərinə hücuma keçdi. Başda prezident Emmanuel Makron olmaqla ölkənin rəsmi şəxsləri dayanmadan çağırışlar edir, Ermənistanı hər cür dəstəklədiklərini bildirir, eyni zamanda, Azərbaycana qarşı kampaniya aparırdılar. Fransa media subyektləri Azərbaycanın, guya, Suriya və İraqdan muzdlular gətirdiyinə, mülki əhalini, yaşayış məntəqələrini atəşə tutduğuna dair feyk xəbərlər yayırdılar.

Təbii ki, Fransa mediası kimi, ölkənin hakimiyyət orqanları da heç nəyə nail ola bilmədilər. Azərbaycan döyüş əməliyyatlarını yalnız Ermənistan baş nazirinin işğal olunmuş ərazilərdən çıxmaqla bağlı vaxt cədvəli təqdim etməsindən sonra dayandırdı. Bundan sonra Azərbaycan tərəfi məsələnin siyasi yolla tənzimlənməsi işinə başladı. Qarabağ iqtisadi rayonunun separatçı rejimin hələ də nəzarətində olan hissəsində yaşayan ermənilərin reinteqrasiyası prosesinə start verildi. Milli Məclisin VI çağırış deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edildi.

2023-cü il martın 1-də Xocalıda ilkin təmaslar aparıldı. Təəssüf ki, təmaslardan sonra erməni sakinlərin nümayəndələrinin arzuolunmaz açıqlamalarının şahidi olduq. Lakin Bakı bu təmasları davam etdirməkdə israrlı idi. Bizim tələbimiz Ermənistan ordusunun qalıqlarının Qarabağdan çıxarılması, bölgənin Azərbaycana reinteqrasiyası, orada yaşayan erməni əsilli şəxslərin ölkəmizin vətəndaşlığını qəbul etmələri idi. Ancaq xarici havadarları Ermənistana və separatçı rejimə 1980-ci illərin sonunda olduğu kimi, şirnikləndirici vədlər, gen-bol dəstək boyun olaraq onlara Azərbaycanın şərtləri ilə razılaşmağa imkan vermədilər. Halbuki, 2023-cü il aprelin 23-də Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması separatçılara ciddi siqnal olmalı idi. Separatçıların Azərbaycanın şərtləri ilə razılaşmaqdan, könüllü şəkildə təslim olmaqdan, əfv diləməkdən savayı yolları qalmamışdı. Onlar isə yenə də daşı ətəklərindən tökmək istəmirdilər. Yenə də məhz Fransa kimi xarici havadarlar onlara bizim şərtlərimizi qəbul etməyə imkan vermədilər. 2023-cü ilin yayında Paris meri Ann İdalqo başda olmaqla Fransanın bir sıra regionlarının Qarabağa humanitar yardım aparmaq adı altında düzənlədikləri şou kampaniyası yaddan çıxmayıb.

Nəticədə Azərbaycan ərazi bütövlüyünü və dövlət suverenliyini tam təmin etmək istiqamətində qəti addımlar atmaq məcburiyyətində qaldı. Bir sutkadan az müddət ərzində davam edən və lokal xarakterli antiterror tədbirləri adlanan həmin tədbirlər xunta rejiminin süqut etməsi ilə nəticələndi. Bununla da Qarabağda separatizm ocağı dağıdıldı, ərazilərimizdən separatizmin kökü birdəfəlik kəsildi. Xunta rejimi "qlavarları"nın sonuncu addımı erməni əhalinin təcili çıxarılması ilə bağlı xarici direktivlər əsasında verdikləri göstəriş oldu. Burada da məqsəd gələcəkdə Azərbaycana təsir və təzyiq göstərmək üçün alətlər formalaşdırmaq idi.

Bir ay sonra Qarabağdakı antiterror tədbirlərinin ildönümü tamam olacaq. Artıq indidən Ermənistanda həmin hadisələr barədə müzakirələrə start verilib. Haylar ənənəyə sadiq qalaraq, baş vermiş hadisələrin mahiyyətini təhrif etməyə, gözə kül üfürməyə çalışırlar. Onlardan daha artıq ermənilik etməyə cəhd edən isə Fransanın fövqəladə və səlahiyyətli səfiri Olivye Dekotinidir. Səfir bugünlərdə yenə də yeqin ki, onu narahat edən "ermənilərin Qarabağa qayıtmaq hüququ"ndan danışıb. O, "X" platformasındakı hesabında yazıb: "Gəlin, öz torpaqlarından qovulmuş Dağlıq Qarabağ ermənilərini unutmayaq. Onların qayıtmaq hüququ Beynəlxalq Məhkəmə tərəfindən təsdiqlənib".

Bəri başdan qeyd edək ki, səfir bu fikirləri yazmaqla səlahiyyətlərindən kənara çıxıb. 1961-ci ildə qəbul olunmuş və 1964-cü ildə qüvvəyə minmiş "Diplomatik əlaqələr haqqında" Vyana Konvensiyası diplomatik nümayəndəliklərin statusunu və funksiyalarını müəyyən edən əsas beynəlxalq hüquqi sənəddir. Həmin sənəddə diplomatik nümayəndəliyin başçısının səlahiyyətlərinin nədən ibarət olduğu açıq-aydın qeyd olunub. Görünür, cənab Dekotini ya konvensiyanı yaxşı oxumayıb, ya da oxuduğu halda səlahiyyətindən kənara çıxmağa vərdiş edib. Bütün hallarda ona səlahiyyətinin nədən ibarət olduğunu nəzərdə tutan üçüncü maddəni bir daha xatırladaq.

1. Diplomatik nümayəndəliyin funksiyaları bunlardan ibarətdir:

– yerləşdiyi dövlətdə akkreditə edən dövləti təmsil etmək;

– beynəlxalq hüquqla yol verilən hüdudlarda yerləşmə dövlətində akkreditə edən dövlətin və onun vətəndaşlarının mənafelərini müdafiə etmək;

– yerləşmə dövlətinin hökuməti ilə danışıqlar aparmaq;

– yerləşmə dövlətindəki şərait və hadisələri qanuni yolla müəyyən etmək və bunlar haqqında akkreditə edən dövlətin hökumətinə məlumat vermək;

– akkreditə edən dövlətlə yerləşmə dövləti arasında dostluq münasibətlərini təşviq etmək və onlar arasında iqtisadiyyat, mədəniyyət və elm sahəsində qarşılıqlı münasibətləri inkişaf etdirmək.

Səfir Dekotini Ermənistanda Fransa Respublikasının maraqlarını təmsil etdiyini unudub. Onu da unudub ki, Qarabağ iqtisadi rayonu Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisidir. Azərbaycan 1992-ci ildə BMT-yə indiki sərhədləri daxilində, yəni 86,6 min kvadratkilometr hüdudları çərçivəsində qəbul olunub. Azərbaycan torpaqları, o cümlədən burada yaşayan şəxslərlə bağlı hər hansı fikir səsləndirmək Fransa səfirinin həddi deyil.

Məsələnin digər maraqlı tərəfi ondan ibarətdir ki, bu gün Ermənistan rəsmiləri Qarabağ erməniləri barədə danışmağı faktiki olaraq dayandırıblar. Burada sual yaranır: Niyə fransalı diplomatlar və deputatlar ermənilərin Qarabağa qayıtması barədə hətta, Ermənistan rəsmilərindən də çox danışırlar? Fransanın burada marağı nədir? Cənab Dekotini başa düşmür ki, Qarabağ erməniləri qayıtsalar, onlar Azərbaycan vətəndaşlığını qəbul etməli, ölkəmizin qanunları çərçivəsində yaşamalı olacaqlar. Çünki beynəlxalq hüquqa görə, onların sadəcə olaraq, başqa variantı yoxdur.

Onu da bildirək ki, səfir bugünlərdə sosial şəbəkə hesabında daha bir təxribatçı paylaşım edib. Lilit Şahverdyan adlı tələbə qızla birgə fotosunu paylaşan diplomat yazıb: "Dağlıq Qarabağdan olan tələbə Lilit Şahverdyan bu tədris ilinin əvvəlindən Paris Siyasi Araşdırmalar İnstitutunda təhsil alacaq. Bu parlaq uğur həm də onun əziyyət çəkmiş həmyaşıdları üçün ümid rəmzidir. Bu yolda ona dəstək olan və onu müşayiət edən hər kəsə təşəkkür edirəm".

Bu paylaşımın özü də qeyd etdiyimiz kimi, Fransa səfirinin daha bir təxribatçı addımıdır. Həmin Lilit və onun həmyaşıdları Fransa kimi xarici havadarların Qarabağ ermənilərinin reinteqrasiyasına imkan verməmələri səbəbindən 11 ay öncə bölgəni tərk etməli olublar. Səfirin qəlbinin dərinliyində bunu bildiyi halda bu cür paylaşımlar etməsi, sadəcə, ikrah hissi doğurur.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**

**Rasim MUSABƏYOV,**
**politoloq**



– Dekotini bu mövzunu yalnız yerli auditoriyanı sevindirmək və "Artsax" adlanan məsələni media məkanında gündəmdə saxlamaq üçün qaldırır. Mən buna əminəm. Çünki nə Fransa, nə də Ermənistan bu mövzunu beynəlxalq arenada canlandırmaq, Azərbaycanı onun müzakirəsinə cəlb etmək iqtidarında deyil. Boş yerə səy göstərirlər. Bakı bu məsələni nə İrəvanın, nə Parisin, nə də başqasının iştirakı ilə müzakirə etmək niyyətində deyil. Biz yalnız Qarabağda dünyaya gəlmiş erməni əsilli şəxslərin dövlətimizin hakimiyyət orqanlarına və qanunlarına sadiq olacaqları təqdirdə Azərbaycana qayıdışını leqallaşdırmaqla bağlı fərdi müraciətlərinə baxmağa hazırıq.



# Milli Məclisə seçkilərə 10 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Seçkilər Rusiyadan da canlı izlənəcək

**“Dünya azərbaycanlıları Vətəndə baş verən bütün proseslər kimi, Milli Məclisə seçkilərə hazırlığı da yaxından izləyirlər. Bizi maraqlandıran əsas məqam ölkəmizin demokratiya nümunəsi sərgiləməsi və səsvermənin azad olunmuş ərazilərdə də keçirilməsidir”.**

Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Rusiyanın Çelyabinsk vilayətində fəaliyyət göstərən “Ozan” Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Rafael Quliyev deyib. Diaspor təşkilatının sədri bildirib ki, dünya azərbaycanlıları daim Azərbaycanın seçki demokratiyası ilə fəxr ediblər: “Ölkəmizin zəngin seçki təcrübəsi var. Müstəqilliyimizin bərpasından sonra keçirilən hər bir seçkidə demokratikləşmə prosesi daha da inkişaf edib”.

R.Quliyev Azərbaycanda şəffaf seçkilərin keçirilməsi üçün bütün şəraitin yaradıldığını diqqətə çatdırıb: “Beynəlxalq standartlara uyğun seçki qanunvericiliyi mövcuddur və onun tələblərindən kənara çıxılmır. Seçkiqabağı təşviqatda namizədlərə bərabər şərait yaradılır. Yerli və beynəlxalq müşahidəçilər həm seçkiöncəsi mühiti, həm də səsvermə prosesini sərbəst şəkildə izləyə bilirlər. Əlilliyi olan şəxslərin səsvermə hüququndan istifadə edə bilməsi üçün lazım olan bütün avadanlıqlar quraşdırılır. Bununla yanaşı, seçki məntəqələrindəki veb-kameralar vasitəsilə dünyanın istənilən yerindən seçkiləri canlı şəkildə izləmək mümkündür. Rusiyadakı azərbaycanlılar bu imkandan istifadə edərək, 1 sentyabr seçkilərini canlı izləyəcəklər”.



# “Exit-poll”çuların qeydiyyatı başa çatır

**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar “exit-poll” keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi prosesi bu həftə başa çatacaq.**

“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, bu, MSK-nın “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nda öz əksini tapıb.

Seçkilərdə “exit-poll” keçirən təşkilatların akkreditasiyası qaydalarına əsasən, “exit-poll” keçirmək niyyətində olan təşkilatlar səsvermə gününə azı 20 gün qalmış akkreditasiyadan keçmək barədə MSK-ya yazılı müraciət təqdim etməlidirlər. Həmin qaydalara görə, hər bir yazılı müraciətə, onun daxil olduğu gündən başlayaraq 10 gün müddətində MSK tərəfindən baxılmalı, müraciətlə birgə təqdim olunmuş sənədlər araşdırılmalı və müvafiq təşkilatın akkreditasiyadan keçib-keçməməsi barədə əsaslandırılmış qərar qəbul edilməlidir.




Növbədənkənar parlament seçkiləri ilə bağlı “exit-poll” keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi prosesi avqustun 22-də başa çatacaq.

# “Farodi Roma” parlament seçkiləri barədə

**İtaliyanın katolik icmasına məxsus “Farodi Roma” qəzetində Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilərdən bəhs edən məqalə dərc olunub.**



FarodiRoma
Quotidiano di informazione

HOME EDIZIONI LOCALI ESPAÑOL PORTUGUÊS FRANÇAIS

Attualità Esteri Politica

L’Azerbaigian al voto in settembre. Per la prima volta seggi aperti anche nei territori già occupati dagli armeni (C. Marino)

Di redazione - 19/08/2024

L’Azerbaigian sta acquisendo sempre più influenza nella regione del Caucaso del Sud e, nei

PRIMO PIANO

Nell’offensiva verso Kursk, l’Ucraina ha perso 3500 soldati e 350 tra carri armati e blindati. Putin: “hanno intrapreso la strada dell’autodistruzione” (A.P.)

“Berlino è obbligata a rispondere a tutte le domande poste dalla Russia sugli attacchi terroristici al Nord Stream”. Mosca chiede chiarimenti sull’inchiesta tedesca riguardo al sabotaggio dei gasdotti (C. Meier)

Il piano terroristico ucraino per ribaltare le sorti della guerra: distruggere le

“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, yazıda parlament seçkilərinin ən mühüm cəhətinin ilk dəfə Azərbaycanın bütün ərazilərində, o cümlədən 2020-ci ilə qədər Ermənistanın işğalı altında qalmış ərazilərdə keçiriləcəyi bildirilir. Məqalədə vaxtilə erməni işğalı altında qalan və azad edilən ərazilərdə parlament seçkiləri ilə əlaqədar ilk dəfə olaraq seçki məntəqələri yaradıldığı diqqətə çatdırılır.

Qeyd olunur ki, növbədənkənar parlament seçkilərində mindən çox vətəndaş deputatlığa namizədliyini irəli sürüb və Milli Məclisə 125 deputat seçiləcək. İndiyədək 40-dan çox ölkədən və 30-dək beynəlxalq təşkilatdan xarici müşahidəçinin qeydiyyatdan keçdiyi deyilən məqalədə ölkəmizin Cənubi Qafqaz regionunda getdikcə daha çox nüfuz qazandığı vurğulanır.

“Farodi Roma”, həmçinin noyabrda Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının – COP29 sessiyasının keçiriləcəyi və ölkəmizin beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə zəngin təcrübəyə malik olduğu vurğulanır.

# Seçki xəbərləri

## Beynəlxalq müşahidəçilər Beyləqanda

83 saylı Beyləqan DSK-nın sədri Zakir Vəlişov “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında bildirib ki, ATƏT/DTİHB müşahidəçiləri dairədə seçkiyə hazırlıq prosesini izləyiblər: “Dairədə qeydə alınmış 6 namizəd mübarizə aparır. Namizədlərin seçkiqabağı təşviqat kampaniyasını aparmaları üçün qanunvericiliyə uyğun olaraq, hamısına bərabər şərait yaradılıb. Bütün məntəqələrdə qapalı və açıq görüş yerləri ayrılıb, o cümlədən, təşviqat lövhələri yerləşdirilib”.




## SMK-nın 75 dairədə nümayəndəsi var



"Vətəndaş Cəmiyyəti Uğrunda” Seçki Müşahidə Koalisiyası Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ölkə üzrə 75 seçki dairəsində 500 nəfərdən çox şəxs ilə müşahidə aparacaq. Müşahidəçilər QHT üzvləri, fəalları və könüllüləridir. Koalisiya müşahidə prosesinə Ağdam, Cəbrayıl, Zəngilan, Füzuli, Laçın, Kəlbəcər rayonlarında və Şuşa şəhərində müşahidəçi kimi doğma yurdlarına qayıtmış QHT nümayəndələri cəlb olunub.

## Seçkilər ölkəmizi gələcəyə aparır



“İlk dəfə səs vermək mənim üçün böyük əhəmiyyət kəsb edir. Bu, yalnız səs vermək deyil, eyni zamanda, gələcəyimizin qurulmasında iştirak etmək deməkdir”. Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında parlament seçkilərində Sumqayıtda ilk dəfə səs verəcək Nuray Əzimli bildirib ki, sumqayıtlı bir gənc olaraq, doğulduğum və böyüdüyüm şəhərin, eləcə də bütün Azərbaycanın xoşbəxt gələcəyinə səs vermək mənim üçün qürurvericidir: “Düşünürəm ki, seçkilər Vətənimin sabahı üçün mühüm məqamdır və mən bunun bir parçası olduğuma görə çox sevinirəm”.

## Bir dairədə 13 namizəd



12 saylı Xəzər birinci Seçki Dairəsinə 37 məntəqə daxildir. Dairə üzrə 47 min 981 seçici qeydə alınıb. Müraciət edən 13 nəfərdən hamısının namizədliyi qeydə alınıb.

Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 12 saylı Xəzər birinci DSK-nın sədri Mütəllim Balaqardaşov deyib. DSK sədri onu da bildirib ki, məntəqə seçki komissiyalarının üzvləri üçün MSK tərəfindən təşkil olunan maarifləndirici treninqlər başa çatıb.

# Müşahidəçilərdən ərizə qəbulu yekunlaşır

**Milli Məclisə seçkilərdə Azərbaycan Respublikasının bütün seçki dairələrində müşahidə aparılması üçün ərizələrin Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edilməsi prosesi yekunlaşmaq üzrədir.**



“Seçki 2024” Müstəqil Media Mərkəzi xəbər verir ki, bu, MSK-nın “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nda öz əksini tapıb.

Seçki Məcəlləsinə əsasən, aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları və beynəlxalq (xarici) müşahidəçilər seçkilərdə müşahidəçi qismində çıxış edə bilərlər. Ölkənin bütün ərazisində müşahidələrin aparılmasına dair ərizə seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq, seçkilərin keçirilməsinə 10 gün qalanadək MSK-ya təqdim edilə bilər. Ərizələrin MSK-ya təqdim edilməsi prosesi avqustun 22-də başa çatacaq.

# Azərbaycanın demokratiya təntənəsi

**Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Azərbaycanın Olimpiya çempionu Elnur Məmmədli deyib.**



“Növbədənkənar parlament seçkiləri bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan xalqı ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etdikdən sonra ilk parlament seçkilərinə qatılır”. O bildirib ki, bu, sadəcə seçki deyil, eyni zamanda, Azərbaycanın gücünün təsdiqi olan tarixi andır: “Biz bu seçkilərlə dünyaya nümayiş etdirəcəyik ki, Azərbaycan xalqı öz taleyini özü müəyyən edən, qətiyyətli və müstəqildir”.

Olimpiya çempionu əlavə edib ki, bu seçkilər gələcəyimizə olan inamımızı təsdiqləmək, xalqımızın rifahını artırmaq, ölkəmizin daha da güclənməsini təmin etmək üçün vacibdir: “İdmançı olaraq hər zaman ölkəmizi beynəlxalq arenalarda fəxrlə təmsil etmişəm. İndi isə Azərbaycanın hər bir vətəndaşı kimi, bu seçkilərdə iştirak edərək, Azərbaycanın daha da inkişafı üçün səsimi verəcəyəm. Bütün həmvətənlərimi seçkilərdə fəal iştirak etməyə çağırıram”.

# Zəfər əhval-ruhiyyəli kampaniya

**“Parlament seçkilərinin azad edilmiş ərazilərimizi də əhatə etməsi bir ilkdir. Bu, bizi qürurlandırır. Torpaqlarımızın düşmən işğalından qurtarılmasında iştirak etmiş bir şəxs kimi mən də bu seçkilərə görə böyük fəxarət hissi keçirirəm”.**

Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə Vətən Müharibəsi Qəhrəmanı Cavid Behbudov deyib.

“Mən də o torpaqların azad edilməsi uğrunda döyüşmüşəm, yaralanmışam və Ali Baş Komandan İlham Əliyev tərəfindən Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşəm. İndi həmin torpaqlarda parlament seçkilərinin keçirilməsi bizim üçün qürurdur, fəxrdir. Həm də ona görə fəxrdir ki, şəhidlərimizin qanı yerdə qalmadı, onların qisası alındı və onların ruhu şaddır ki, bu gün uğrunda canlarını verdikləri Vətən torpağı azaddır. Mən hər kəsi bu parlament seçkilərində fəal iştirak etməyə səsləyirəm”.



*Səhifəni hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycanın xarici siyasəti və beynəlxalq təşkilatlar

## BRİKS və ŞƏT kontekstində




I MƏQALƏ

### Xarici siyasət və regionalizm

Azərbaycanın xarici siyasəti mahiyyətcə çoxistiqamətli və çoxaspektlidir. Rəsmi Bakı bu özəlliyi davamlı olaraq saxlayır, inkişaf etdirir və geosiyasi dinamikadan asılı olaraq ona yeni məzmun çalarları verir. Azərbaycan Prezidentinin yeni tarixi mərhələnin başlaması haqqında məlum bəyanatından sonra həmin istiqamətdə ölkənin xarici siyasətində fəallığın daha da artdığını görürük. Bu, həm siyasi-nəzəri hadisə, həm də praktiki siyasi-diplomatik proses kimi olduqca əhəmiyyətli və maraqlıdır. Ən azı üç prizmadan baxanda bu tezisin əsaslılığını görə bilərik.

Birincisi, yeni tarixi mərhələyə Azərbaycan Ermənistanla sülh müqaviləsi bağlamaq zərurəti fonunda qədəm qoymuşdur. Ermənistanla sülh müqaviləsi məsələsi ilə regional və qlobal kontekstdə uğurlu olmağı da tələb edir. Buna görə də rəsmi Bakının xarici siyasətində yeni məqamlar yaranmalıdır.

İkincisi, yeni tarixi mərhələyə Azərbaycan güclü regional lider kimi başlamışdır. Bu da Bakının üzərinə Cənubi Qafqazın təhlükəsizliyinin və inkişafının təmin edilməsində aparıcı rol oynamaq məsuliyyətini qoymaqdadır. Eyni zamanda, regional sabitlik, əməkdaşlıq və təhlükəsizlik üçün regionlararası geosiyasi məkanda fəal olmaq ehtiyacı meydana gəlmişdir.

Üçüncüsü, Azərbaycan Türk Dövlətləri Təşkilatının (TDT) aparıcı üzvü kimi digər regional təşkilatlarla əlaqələrin fəlsəfəsini, siyasi-diplomatik məzmununu müəyyən etməlidir.

Bu üç istiqamətin sintezi rəsmi Bakının xarici siyasətdə çoxistiqamətliliklə əlaqələrin çoxaspektliliyini yeni səviyyədə təmin etməsi tələbini ortaya çıxarır. Hazırda məhz həmin kontekstdə Azərbaycanın BRİKS və ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı) münasibətləri aktuallaşmışdır. Rusiya prezidentinin Azərbaycana son səfərinə də bu kontekstdə baxmaq aktual görünür. BRİKS və ŞƏT-in təşkilat kimi struktur və funksional özəlliklərinin işığında məsələnin bu tərəfi aydınlaşır.

### BRİKS və ŞƏT dünya siyasətində

BRİKS təşkilatını Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası 2006-cı ildə yaratmışlar. İndi ora İran, Misir, Efiopiya və Birləşmiş Ərəb Əmirlikləri də üzv olmuşlar. Əsas məqsədi iqtisadi əməkdaşlıqdır. Fəaliyyət prinsipləri sırasına qarşılıqlı faydalı əməkdaşlıq, bir-birinin daxili işlərinə qarışmamaq və bərabərhüquqluluqdur.

Bu təşkilatın yaradılmasının kökündə dünya siyasətində Qərbin birtərəfli və ədalətsiz mövqe tutması dayanır. BRİKS üzvləri alternativ, lakin ədalətli geosiyasi güc formalaşdırmaq məqsədindədirlər. Təşkilat kifayət qədər geniş əraziyə, iqtisadi gücə və maliyyəyə malikdir.

ŞƏT isə 2001-ci ildə yaradılmışdır. Bu təşkilata Çin, Rusiya, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan daxildir. 2017-ci ildə Hindistan və Pakistan da ona üzv olmuşlar. 2022-ci ildən İran ŞƏT-in üzvüdür. 2024-cü ildən isə Belarus ora daxil olmuşdur. Beləliklə, hazırda ŞƏT-in 10 üzvü vardır. Bu, Avrasiyanın ərazisinin 65 faizini təşkil edir. Ərazinin ümumi sahəsi 35 milyon kvadratkilometrdir. Burada 3,5 milyard civarında əhali yaşayır.

Əgər BRİKS əsasən iqtisadi yönlü təşkilatdırsa, ŞƏT daha sərbəst fəaliyyət göstərən və daha çox təhlükəsizliyə, terrorla mübarizəyə istiqamətlənmiş qurumdur. Eyni zamanda, iqtisadiyyat, müdafiə məsələləri və siyasət də fəaliyyətində yer almışdır.

Bu iki təşkilatı müqayisə etsək görərik ki, BRİKS daha geniş coğrafi ərazini əhatə edir, lakin həm də regional qaynaqlıdır. ŞƏT isə əsasən Mərkəzi Asiya nüvəli regional təşkilatdır. Onları funksional aspektdə iqtisadiyyat, təhlükəsizlik və əməkdaşlıq birləşdirir. Bu parametrlər üzrə əməkdaşlıq təşkilatları dünya miqyasında təsirli gücə çevirməlidir. Etiraf edək ki, hələlik bu istiqamətdə tam nəticə əldə edilməmişdir. BRİKS və ŞƏT güc toplamaqda və perspektivini artırmaqdadır. Bunun üçün onlara yeni dinamik dövlətlər və ya dövlətlər qrupu lazımdır. BRİKS-in aparıcı dövlətlərinin rəsmiləri bu istiqamətdə daimi diplomatik təşəbbüslər göstərirlər. Rusiya Prezidentinin Azərbaycana təklifi də bu qəbildəndir. Eyni zamanda, rəsmi Bakı bir qədər öncə, BRİKS-ə üzv olmaq istəyini bəyan etmişdir. Deməli, qarşılıqlı arzu artıq vardır. Bunun necə reallaşa biləcəyi üzərində düşünmək olar. Çünki Azərbaycanla bağlı burada bir sıra özəl məqamlar mövcuddur.

### Azərbaycanın cəlbediciliyi

Azərbaycanın BRİKS və ŞƏT-in diqqətini çəkməsinin başlıca səbəbi ölkənin regional lider kimi yeni inkişaf dinamikası səviyyəsinə yüksəlməsidir. Burada “inkişaf” dedikdə Bakının daxili və xarici siyasətdə əldə etdiyi uğurların cəmini nəzərdə tuturuq. Əhəmiyyətlidir ki, Azərbaycan həm inkişafın substantiv aspektində, həm funksionallıqda, həm də kommunikativ aspektdə ciddi uğurlar əldə etmişdir.

Azərbaycanın inkişafının substantiv tərəfini həyata keçirdiyi konkret inkişaf layihələrində, əldə etdiyi sosial-iqtisadi nailiyyətlərdə, ordu quruculuğu və müdafiə sahəsində yeni səviyyəyə yüksəlməsində və idarəetmə institutlarını daha da təkmilləşdirməsində görmək olar.

İnkişafın funksional aspektini Bakının daha dinamik, çevik və nəticəverici addımlar atması təşkil edir. Bu cəhət özünü daxili və xarici siyasətin bütün aspektlərində bir-biri ilə uyğunlaşmış formada göstərir. Nümunə kimi, Azərbaycanda sosial-iqtisadi islahatlarla enerji layihələrinin və regional əməkdaşlıq platformalarının çeşidlərinin artmasını göstərmək olar.

Kommunikativ tərəf isə Azərbaycanın geniş bir geosiyasi–coğrafi məkanda müxtəlif kommunikasiya proseslərində iştirakı, qarşılıqlı fayda verən nəqliyyat–loqistika layihələrini reallaşdırması təşkil edir. Bu baxımdan Azərbaycanın Şimal–Cənub, Şərq–Qərb və Orta dəhliz marşrutları üzrə son dərəcə fəal olması diqqəti çəkir. Azərbaycan həyata keçirdiyi müasir layihələrlə geniş bir məkanda dövlətləri bir-birinə bağlayır.

Bütün bunlar Azərbaycanı dünya üçün cəlbedici edir.

### Regional təşkilatlarda fəallıq

Bakının yeritdiyi xarici siyasətdə regional təşkilatlarda təşəbbüskarlıq və fəallıq xüsusi yer tutur. Bu mənzərə MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatı və TDT-də özünü qabarıq şəkildə göstərir. Artıq bütün dünya Azərbaycanın regional təşkilatlar çərçivəsində konkret nəticəverici, kreativ, dinamik və aktiv fəaliyyət göstərdiyini həqiqət kimi göstərir. Bu zaman, rəsmi Bakının, bir qayda olaraq, əməkdaşlığa, qarşılıqlı yardımlaşmaya və paylaşmağa istiqamətləndiyi aydın görünür. Azərbaycan kimsəyə qarşı olan heç bir məsələni müzakirə etmir. Bakı əməkdaşlıq və təhlükəsizliyi daha da inkişaf etdirməyin yollarını təşkilatlarda müzakirə edər. Azərbaycan tərəfdən zərrə qədər də neqativ təşəbbüs olmur. Bunu dünyanın güclü dövətləri də görürlər və ona uyğun münasibət göstərirlər. Rusiya Prezidenti də həmin siyasətçilər sırasındadır.

### TDT-nin fəal üzvü

Azərbaycanın yeni tarixi mərhələdə istənilən regional miqyaslı təşkilatda iştirakına TDT faktorunu nəzərə almadan adekvat qiymət vermək mümkün deyildir. Çünki indi Azərbaycan faktiki olaraq iki səviyyəni – Cənubi Qafqazın liderliyini və regionlararası miqyasda TDT-nin aparıcı üzvlüyünü təmsil edir. Bu məqamı biz artıq Azərbaycanın geosiyasi obrazının əsas xüsusiyyəti adlandıra bilərik. Yəni burada Azərbaycanın geosiyasi statusunda üç element üzvi surətdə birləşmişdir – milli, regional və multiregional (TDT timsalında).

Bu özəllik həm Azərbaycanın müstəqil dövlət kimi geosiyasi yüksəlişini ifadə edir, həm də onun siyasi-diplomatik funksionallığında nəticəverici aspektin multiregional miqyas aldığını göstərir. Biz BRİKS və ŞƏT məsələsinə yalnız bu prizmadan baxanda həm V.Putinin bu məsələyə münasibətinin, həm də Azərbaycan faktorunun regionlararası əlaqələrdə oynadığı rolun miqyasını, möhtəşəmliyini və səmərəliliyini adekvat anlaya bilərik.

Bu kontekstdə sonuncu faktor kimi Rusiya–Azərbaycan və İran–Azərbaycan münasibətlərinin transformasiyasına da diqqət yetirməliyik. Çünki BRİKS və ŞƏT-in geosiyasi-coğrafi özəllikləri ilə yanaşı, tərkibinin çeşidi də əhəmiyyət kəsb edir. Bu təşkilatların əhatə etdiyi dövlətlərin və TDT-nin struktur-funksional xüsusiyyətlərinin qarşılıqlı müqayisəsi bir sıra aktual məqama işıq salacaqdır.

### Azərbaycan–Rusiya və Azərbaycan–İran münasibətləri

Qətiyyətlə vurğulamaq olar ki, hər iki istiqamətdə münasibətlərin müsbət aspektdə mürəkkəb və çətin transformasiyalarının təşəbbüskarı Azərbaycan Prezidentidir. Bu prosesin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Bütün yersiz inadkarlıqlarına və etirazlarına baxmayaraq, Heydər Əliyev Rusiya və İran rəhbərliyinə Azərbaycanla əməkdaşlığın ancaq xeyirli olacağını prinsipcə inandıra bilmişdi.

Xatirimizdədir, keçən əsrin 90-cı illərində Vladimir Putin Rusiya prezidenti kimi Azərbaycana ilk səfəri zamanı səmimi bir etiraf etmişdi (səhv etmirəmsə, Bakı Slavyan Universitetindəki görüşündə). O demişdi ki, Azərbaycana səfərinin təşəbbüskarı Heydər Əliyevdir. Heydər Əliyev mənə (yəni V.Putinə) zəng edərək, “Azərbaycana gəl, hələ sən gəncsən, gəlib görəcəksən ki, bu, lazımlıdır¸ yaxşı olacaq” – dedi. Sonra sözlərinə davam edən V.Putin Azərbaycan dilində “çox yaxşıdır”,– dedi.

O zamandan iki ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf edir. XXI əsrdə isə İlham Əliyev siyasi-diplomatik və liderlik məharəti ilə rəsmi Moskvanı çox şeylərə inandıra bildi. Azərbaycan Prezidenti konkret nəticələr aldı. A.Karavayev yazır ki, bu prosesdə Azərbaycan Prezidentinin diplomatik məharəti, siyasi ritorikası və ümumilikdə, kommunikabelliyi əsas rol oynadı.

Yəni Azərbaycanla Rusiyanı dost edən Heydər Əliyev–İlham Əliyev xəttidir! Buna görə də V.Putinin son səfərində Bakını “oazis” adlandırmasının ekolojidən başqa, siyasi və geosiyasi anlamı da vardır. Rusiya bu “oazisin” təmiz, faydalı, “oksigeni bol ab-havasından” faydalanmaq arzusundadır. Buna görə də BRİKS və ŞƏT məsələsində rəsmi Moskva ciddidir.

İran məsələsində situasiya müsbətə doğru daha ləng dəyişmişdir. Rəsmi Tehran Rusiyadan fərqli olaraq öncə Azərbaycanı tam inkar etməkdən başladı. Sonra təhdidlərə keçdi. Heydər Əliyevin səfərindən sonra bir qədər yumşaldı, lakin aqressiv ritorikası qalırdı. İlham Əliyevin səmimi təşəbbüsləri rəsmi Tehranı da zaman-zaman reallığı dərk etməyə stimullaşdırdı. Nəhayət, Rəisidən başlayan müsbət tendensiyanı Məsud Pezeşkianın davam etdirəcəyinə ümid çoxdur. İran isə Cənubi Qarfqaza tarixən bağlıdır, BRİKS və ŞƏT-in üzvüdür.

Vurğulanan məqamların işığında Azərbaycanın BRİKS və ŞƏT-ə üzvlüyünün çox mühüm aspektlərini aydınlaşdırmaq olar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni millətçiliyinin təməl prinsipləri

**(əvvəli qəzetin 16, 17, 18 avqust tarixli saylarında)**

### 7. “Erməni ariliyi” və “alman yeni nizam”ı

Ari (Aryan) irq Hind-Avropa dillərinin Hindistandan Qərbi Avropaya qədər olan bölgədə yaşayan xalqların çoxunu ortaq bir irqə mənsub olduğunu qəbul edən anlayışdır. Ari irq nəzəriyyəsinə görə, avropalı olan bu qövm əvvəlcə Hindistanı zəbt etmiş və Hindistandakı arilik sistemi və yerli din istila nəticəsində ortaya çıxmışdır. Ancaq 2009-cu ildə Harvard kimi ABŞ-nin qabaqcıl universitetləri tərəfindən həyata keçirilən ortaq genetik araşdırma nəticəsində bu ictimai qruplar arasında çox böyük genetik fərqlər aşkar edilib.

Ari irq nəzəriyyəsi siyasi olaraq ilk dəfə Hindistanın Böyük Britaniya tərəfindən işğalı əsnasında dəstəklənmişdir. İngilislər işğala haqq qazandırmaq üçün Hindistanın onsuz da qədimdən avropalı bir qövm olan arilər tərəfindən zəbti istiqamətindəki iddiaları qəbul edirdilər. Siyasi mənada aryosofi Almaniyada Adolf Hitler dövründə zirvəyə çatmış, daha sonra nasist Almaniyasının rəsmi dövlət ideologiyasına çevrilmişdir. Bu ideologiya bir çox irqçi qruplar tərəfindən hələ də dəstəklənməkdədir. Onların sırasında Ermənistan və onun dünyanın müxtəlif ölkələrinə səpələnmiş diasporu da var.

İrqçilik doktrinası insanın daşıdığı qanın milli-etnik şəxsiyyətini təyin etdiyini irəli sürür. İstənilən erməni belə hesab edir ki, onun qanı başqasının qanından fərqlidir. Bir çox erməni elm adamları da daxil olmaqla, erməni toplumu içərisində Artsruninin, Garegin Njdenin, Andranikin ortaya atdıqları “erməni ari irqi”, “erməni ariliyi” ideyası tənqid olunmaq, onun sərsəmləmə olduğunu söyləmək əvəzinə, dəstəklənməsi, əslində, ideyasızlıqdan irəli gələn düşüncədir. Elmi dayaqları olmayan bütün fikirlərin ortaya atılması eyni səbəbdən baş verib. Hitler və digər nasist liderləri yəhudiləri dini bir qrup olaraq deyil, digər irqlər “üzərindən dolanan” və onları zəiflədən zəhərli bir “virus” olaraq görürdülər. Hitler hakimiyyətə gəldikdən sonra nasist müəllimlər məktəblərdə arilik elminin “qanunlarını” tətbiq etməyə başladılar. Şagirdlərin gerçək “ari irq”dən olub-olmadıqlarını müəyyən etmək üçün onların kəllə və burun uzunluğunu ölçməyə, saç və göz rənglərini qeydə almağa başladılar. Bu “əməliyyatlar” zamanı yəhudi və qaraçı şagirdlər tez-tez aşağılanır, bununla həm də gələcəkdə onların soyqırımı üçün zəmin hazırlanırdı.

İrqçi antisemitizmə, gerçək xarici bioloji nəzəriyyələrə əsaslanan, hər hansı topluma qarşı ibtidai ittiham irəli sürmək, ya da içində nifrəti ehtiva etmək, yəni irqçilik etmək – erməni millətçiliyinin hər zaman ayrılmaz bir parçası olmuşdur. Alman nasistləri kimi ermənilər də bütün bəşər tarixini fərqli irqlərdən gələn insanlar arasında bioloji baxımdan təyin olunan mübarizənin tarixi kimi qiymətləndirmişlər. Nasistlər özlərinin marksizm, kommunizm, pasifizm və internasionalizmin



siyasi meyllərinin milliyyətçiliyə zidd olduğunu və təhlükəli yəhudi irqinə aid intellektualizmi əks etdirən fərziyyədən yola çıxmışlar. Onlar iqtidara gəlmələrinin ardından, 1935-ci ildə yəhudiliyin sözdə bioloji tərifini verən Nürnberq qanunlarını qəbul etmişlər.

İrqçi nasistlər xəstələri genetik baxımdan üstün irqlərindən ortaya çıxan ləkələr olaraq görür və bu kəslərin çoxalmasının öz “ari irqlərinə” qarşı bioloji təhdid meydana gətirdiyinə inanırdılar. Həm də bundan çox qorxurdular. 1939-cu ilin ikinci yarısı ərzində diqqətli bir planlaşdırma və məlumat toplama müddətindən sonra alman həkimlər ölkənin hər yerində xəstəxanalarda qalan ruhi xəstələri öldürməyə başladılar. Onların irqlə əlaqədar nəzəriyyələrinə görə, almanlar, eləcə də şimali avropalılar daha üstün bir irqdən gəlirdi. Bunlar “Aryan-ari” irqin daşıyıcılarıdırlar.

Erməni “ariliyinin” əsas internet saytlarından olan “hayary.org”da erməni ariləri icmasının lideri Armen Avetisyanın qələmə aldığı “Türkiyə və Azərbaycan məhv edilməlidir” sərlövhəli yazısının qısa məzmununa diqqət yetirin: “24 aprel –“erməni soyqırımı” qurbanlarının anım günü və ədalətli qisas günüdür. Bizim üçün türklər türk olaraq qalırlar (azərbaycanlı və türkiyəliliyindən asılı olmayaraq) – istəyimiz eynidir: Türkün qurd geni tamamilə məhv edilməlidir Yaxşı türklər yaxşı tabutda, pis türklər isə pis tabutda olmalıdır. Türkiyə və Azərbaycan məhv edilməlidir! Dünyanın istənilən ölkəsində yaşayan hər bir erməninin ilk işi bu olmalıdır”.

Məlumdur ki, Adolf Hitler vaxtilə erməniləri yəhudi xalqından biri kimi təsnif etmişdi və buna görə də ermənilərin də yəhudilər kimi məhv edilməli olduğunu söyləmişdi. Ancaq bir qrup erməni və xarici elm adamının fəaliyyəti sayəsində, bu, baş vermədi. Tarixçi alim, “soyqırımı üzrə uzmanı” Aşot Hayruniyə görə, faşist Almaniyası tərəfindən ermənilərin məhv edilməsi üçün 1932-ci ildən sonra ermənilərin də yəhudi olması barədə təbliğat aparılırdı. Bu anti-erməni təbliğatının müəllifləri əsasən türklər və onların tərəfdarları idi. Lakin insanlar bundan xəbərsiz idilər. Məsələn, o dövrdə Almaniyada və digər ölkələrdə erməni xalqının dostu sayılan Yohannes Lepsius ermənilərin nəinki yəhudi olmadığı, Aryan irqinə mənsub olduqlarını, almanların ermənilərə xüsusi diqqət yetirmələri gərəkliyini iddia edərək bu baxışlara qarşı çıxdı.

Aşot Hayruni öz məqaləsində yalnız bundan sonra Almaniyanın daxili işlər nazirinin xüsusi sərəncamı ilə anti-erməni təbliğatının dayandırıldığını, ermənilərin Aryan xalqları olaraq təsnif edildiyini və bu münasibətin İkinci dünya müharibəsinin sonuna qədər qüvvədə qaldığını yazır.

1934-cü ildə yuxarıda göstərilən fərmana əsasən, erməni və arilikdən bəhs edən 10 məqalə çap edildi. Tarixi, etnik, mədəni, elmi və digər baxımdan yazılan bu məqalələrin hər birində ermənilərin “ari irq” mənşəli olduğu bildirilirdi.

Tarixçi Eduard Zöhrabyanın dediyi də maraqlıdır: “Bəli, bu, bizim üçün Böyük Vətən müharibəsi idi. Çünki problemimiz var idi və 1915-ci ildə ermənilərin xatirələri yaddaşımızda hələ təzə idi. Onun müəllifi Türkiyə idi və bu döyüşdə Türkiyə Almaniyanın ortağı idi”.

Eduard Zöhrabyan Qafqaz xalqlarının bu müharibədə iştirakı ilə bağlı daha vacib bir məqamı vurğulayır. Müharibə zamanı milli legionların meydana gəlməsi haqqında 1942-ci ilin dekabrında Adolf Hitler çıxışında demişdi: “...Rozenberqin və ordunun bütün vədlərinə baxmayaraq, ermənilərə etibar etmirəm”. Ermənilərin Hitleri rəğbət bəsləməsinə baxmayaraq, Hitler kimi faşist belə onları sevmirdi...

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Azərbaycan və Rusiya mötəbər tərəfdaşlardır

**Azərbaycan və Rusiya arasında mövcud siyasi əlaqələrin ən yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə də müsbət təsir göstərir. Xüsusilə ölkələrimizi bir-birinə yaxınlaşdıran, əməkdaşlığı dərinləşdirən geniş hüquqi bazanın yaradılması və mütəmadi qaydada iqtisadi forum və konfransların keçirilməsi bu məsələdə həlledici rol oynayır.**

Ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması tədbirləri nəticəsində Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələri bu gün də dayanıqlı inkişaf dinamikasının təmin edilməsini gerçəkləşdirir.

Bütün bunlar barədə prezidentlər İlham Əliyevin Vladimir Putin ilə avqustun 19-da məhdud və geniş tərkibdə keçirdiyi görüşlərdə, eləcə də dövlət başçılarının mətbuata bəyanatlarla çıxışlarında geniş bəhs edilib. Dövlətimizin başçısı bəyanatında bildirib ki, iki ölkə arasında iqtisadi-ticari münasibətlər yüksək səviyyədə inkişaf edir. Keçən il və bu ilin 6 ayında əmtəə dövriyyəsinin artımı əməkdaşlığın böyük potensialından xəbər verir. Ötən il bu sahədə 4 milyard dollar həddinin keçilməsi isə perspektivdə daha yüksək göstəricilərin əldə olunacağı əminliyi yaradır.

Prezident İlham Əliyev bəyanatında dövlətlərarası münasibətlər üçün mühüm önəm daşıyan regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları, "Şimal-Cənub" layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlərə də toxunaraq deyib: "Azərbaycanın ərazisində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox – 30 milyon tonadək yüklərin daşınması imkanlarından danışırıq və bu, tamamilə realdır. Ümidvaram ki, hazırkı şəraitdə Rusiya və Azərbaycan, həmçinin bu dəhlizin digər iştirakçıları birgə səylərlə öz fəaliyyətini davam etdirəcəklər".

Yeri gəlmişkən, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin təməli 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaq olub.

Sözügedən nəqliyyat marşrutunun formalaşmasında tranzit ölkə kimi mühüm rol oynayan Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Avrasiya materikinin şimal və cənub hissələri arasında mühüm nəqliyyat-logistika rolunu oynayan dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində ötən müddətdə böyük infrastruktur layihələri həyata keçirilib. Bu baxımdan Bakı Dəniz Ticarəti Limanı xüsusi əhəmiyyət daşıyır. Son illər limanın yükaşırma qabiliyyətinin artırılması ilə bağlı görülən işlər onun beynəlxalq statusunu xeyli gücləndirir. Bundan əlavə, Ələt-Astara avtomobil yolunun yenidən qurulması, İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsünün istifadəyə verilməsi ölkəmizin tranzit rolunun xeyli artmasına səbəb olub.

Bütövlükdə isə, Prezident İlham Əliyevin "Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli sərəncamına uyğun olaraq Astara (Azərbaycan)–Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib, Astaraçay üzərində dəmir yolu və avtomobil körpüləri inşa olunub, buradan İran İslam Respublikası ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib. Dəhliz çərçivəsində nəzərdə tutulmuş



infrastruktur layihələri tamamlandıqdan sonra İran ərazisindən keçməklə Bakıdan Naxçıvan Muxtar Respublikasına dəmir yolu ilə birbaşa daşımaların təşkili mümkün olacaq.

Yaxın gələcəkdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin illik gəliri 20 milyard dollara çatacaq. Eyni zamanda, dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Ekspertlər hesab edirlər ki, ölkəmiz bu nəqliyyat dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollar qazanacaq.

Azərbaycan–Rusiya siyasi münasibətlərinin yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə öz müsbət təsirini göstərir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəmizə dövlət səfərinin mühüm məqamlarını şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) strateji planlaşdırma şöbəsinin müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov bildirib ki, iki ölkə arasında ticarət, sənaye, energetika, investisiya qoyuluşu, nəqliyyat, logistika, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir və strateji tərəfdaşlığımız indiyədək imzalanmış 300-ə yaxın sənədə əsaslanır.

A.Əsədovun sözlərinə görə, Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. İki ölkə arasında ticarətin daha da asanlaşdırılması üçün gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, prosedurların sadələşdirilməsi, yükdaşımaların həcminin artırılması və digər istiqamətlərdə dinamik və dayanıqlı tədbirlər görülür. Bunun nəticəsi olaraq, 2017-ci illə müqayisədə ötən il iki ölkə arasında ticarət dövriyyəsi iki dəfədən çox artaraq rekord həddə – 4,4 milyard ABŞ dollarına çatıb. Cari ilin yanvar–iyul aylarında isə bu göstərici 2 milyard 572,8 milyon ABŞ dolları təşkil edib.

İİTKM-in şöbə müdiri bildirib ki, iki ölkə arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla həyata keçirilməsi və daha da genişləndirilməsində 2024-cü ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi"nin imzalanması xüsusi önəm daşıyır. Yol Xəritəsi ticarət–iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur.

Rusiya və Azərbaycanın əməkdaşlığı, ikitərəfli iqtisadi münasibətlərin inkişafı istiqamətində önəmli rol oynayan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşınmaların artırılması, dəhliz boyunca infrastruktur təminatının təkmilləşdirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və s. kimi məsələlər adıçəkilən Yol Xəritəsində də yer alıb ki, bu da iki ölkə arasında nəqliyyat-tranzit əlaqələrinin uzunmüddətli perspektivə malik olduğunu ifadə edir. Bu layihənin uğurla icrası sayəsində 2022-ci ilədək yükdaşımaların həcmi 8 dəfə, 2023-cü ilin 6 ayı ərzində isə 60 faiz artıb. Ümumilikdə isə 2023-cü ildə dəhliz üzrə 9,3 milyon ton yük daşınıb. Dövlət başçılarının görüşündə də səsləndirildiyi kimi, Azərbaycan ərazisində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu marşrutları üzərində işlər tam yekunlaşıb. Gələcəkdə dəhlizin ötürücülük qabiliyyətinin 15 milyon ton və daha çox olması hədəflənir.

Aqil Əsədov sonda vurğulayıb ki, Rusiya Prezidentinin ölkəmizə səfəri çərçivəsində AZPROMO ilə Rusiya Birbaşa İnvestisiyalar Fondunun idarəedici şirkəti arasında Anlaşma Memorandumunun, eləcə də ekologiya, əmək qanunvericiliyi, qida təhlükəsizliyi, bitkiçilik, səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində sənədlərin imzalanması onu göstərir ki, iki ölkə arasında əməkdaşlıq təkcə iqtisadi sahədə deyil, həm də digər istiqamətlər üzrə də inkişaf etdirilir.

# Aqrar sığorta kəndlinin etibarlı himayədarıdır



**(əvvəli 1-ci səhifədə)**

Son illər Azərbaycanda da gözlənilməz təbiət hadisələri getdikcə daha çox hiss olunur. Təbiətin ani şıltaqlığından ən çox ziyan görən isə fermerlər olur. Bu da bəzən onların əlini işdən soyudur, əkin-biçinə maraqlarını azaldır. Ölkəmizdə bir neçə il əvvəl tətbiqinə başlanmış aqrar sığorta mexanizmi isə kəndlini müxtəlif təbiət hadisələrinin vurduğu ziyandan qoruyur, onun sabaha inamını artırır. Artıq Aqrar Sığorta Fondu kimi himayədarı olan fermerlər, əkin-biçin adamları özlərini daha arxayın və güvənli hesab edirlər. Elə aqrar sığorta mexanizmi də hər an, hər yerdə kəndlinin yanındadır. Təbii fəlakətdən ziyan görmüş fermerin bununla bağlı müraciəti daxil olan kimi fondun ekspertləri dərhal təsərrüfatlara baxış keçirərək dəymiş ziyanı yerindəcə müəyyənləşdirir, əkin-biçin adamına veriləcək sığorta ödənişinin məbləğini təyin edirlər.

Bunun nəticəsidir ki, son zamanlar Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizminin əhatə dairəsi getdikcə genişlənir. Təkcə onu demək kifayətdir ki, hazırda bu mexanizm üzrə ölkədə 450 min hektara yaxın əkin sahələri sığortalanıb. Aqrar sığortanın əhatə etdiyi əkinlərə isə buğda, arpa, qarğıdalı və pambıqla yanaşı, fındıq, çəltik, şəkər çuğunduru, günəbaxan, qarpız, əksər meyvə bağları və digər bitkilər aiddir. Bundan əlavə, cari ilin ötən dövründə ölkə üzrə 1917 baş mal-qara sığorta edilib. Ümumilikdə, hazırda Azərbaycanda fermerlərə 48 bitki növü üzrə 14 riskdən, heyvandarlıq üzrə isə 8 riskdən sığorta təminatı təklif edilir. Artıq fermerlərin 96 faizi üçün aqrar sığorta xidmətlərinin əlçatanlığı təmin edilib. Yaxın illərdə isə ölkəmizdə aqrar sığortanın əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Aqrar Sığorta Fondu İdarə Heyətinin sədri Fuad Sadıqovun bildirdiyinə görə, cari ilin yanvar-iyul aylarında Azərbaycanda 11,3 milyon manat aqrar sığorta haqqı toplanılıb ki, bunun da 10,2 milyon manatı bitkiçilik, 1,1 milyon manatı isə heyvandarlıq sahələrinin payına düşüb. Onun sözlərinə görə, ötən 7 ay ərzində fond tərəfindən fermerlərə 3 milyon 250 min manatdan artıq sığorta ödənişi edilib. Bunun da 2 milyon 573 min manatı bitkiçilik, 678 min manatı isə heyvandarlıq sığortası üzrə verilib. Təkcə iyul ayında fermerlərə ödənilmiş 386 min manat sığorta məbləğinin 330 min manatı bitkiçilik, 57 min manatı isə heyvandarlıq sahələrinin payına düşüb. Artıq fond tərəfindən 8,2 milyon manatlıq sığorta ehtiyatı yaradılıb. İlin sonuna qədər isə bu məbləğin 11,4 milyon manata çatdırılacağı gözlənilir.

Bu ilin ötən dövründə ölkənin ayrı-ayrı bölgələrində müşahidə edilən güclü külək, qasırğa, fırtına, dolu və güclü yağışlar əkin sahələrinə və təsərrüfatlara xeyli zərər vurub. Təsərrüfatlarda baş verən sığorta hadisələri ilə bağlı Aqrar Sığorta Fonduna 1700-ə yaxın müraciət daxil olub. Müraciətlərin əksəriyyəti Şamaxı, Qobustan, Şəki, Oğuz, Beyləqan, Zaqatala, Hacıqabul, İsmayıllı, Kürdəmir, Ağsu, Füzuli, Yevlax, Ağcabədi, Xocavənd, Tərtər, Salyan, Balakən, Ağdam, Tovuz, Zərdab, Goranboy, Cəlilabad, İmişli, Ağstafa, Biləsuvar, Şəmkir, Qusar, Qax və digər rayonlarına aid olub. Həmin müraciətlər ümumilikdə, 140 min hektar əkin sahəsini əhatə edib. Ümumilikdə isə, buğda, arpa, qarğıdalı, pambıq, şəkər çuğunduru, fındıq, günəbaxan və tütün bitkiləri, eləcə də narıngi, şaftalı və ərik bağları ilə bağlı müraciətlərin sayı daha çox olub. Xatırladaq ki, Azərbaycanda aqrar sığorta dövlət dəstəyi ilə təqdim edilir. Belə ki, sığorta haqqının 50 faizini fermerlərə dəstək üçün dövlət özü ödəyir. Nəticədə, fermerlər cüzi ödəniş etməklə təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilirlər.

Aqrar Sığorta Fondundan verilən məlumata görə, müraciətlərin bir hissəsi sığortası olmayan əkin sahələrini əhatə edib. Sığorta müqaviləsinin olmaması səbəbindən isə həmin müraciətlər üzrə heç bir ödəniş edilməyib. Odur ki, fond əkin sahələrinin təbiət hadisələləri və digər risklərdən qorunması üçün fermerləri təsərrüfatlarını sığorta etməyə çağırır.

Bu arada, Aqrar Sığorta Fondunda müstəqil aqrar sığorta ekspertlərinin hazırlığı üzrə növbəti təlimlərə start verilib. Fonddan verilən məlumata görə, 2024-cü il ərzində sayca ikinci olan budəfəki təlimə ölkənin müxtəlif bölgələrini təmsil edən 75 namizəd qatılıb. Təlimlərdə namizədlərə əkin sahələri və təsərrüfatlarda baş verən hadisələrin araşdırılması, fermerlərə dəyən zərərin səbəblərinin müəyyən edilməsi, dəymiş zərərin hesablanması üzrə biliklər verilir. Avqustun 19-da başlanmış təlimlərlə əlaqədar keçirilən tədbirdə Aqrar Sığorta Fondu İdarə Heyətinin sədri F. Sadıqov aqrar sığortanın əhatəsinin sürətlə genişləndiyi bir şəraitdə müstəqil aqrar sığorta eksperti institutunun vacibliyini qeyd edib. O, deyib ki, aqrar sığorta ekspertlərinin sayının artması və bütün ölkəni əhatə etməsi sığorta hadisələri ilə bağlı müraciətlərə daha tez reaksiya verməyə, hadisə nəticəsində dəyən zərərlərin sürətli tənzimlənməsi və fermerlərə ödənişlərin daha tez həyata keçirilməsinə imkan verəcək.

Qeyd edək ki, avqustun 25-dək davam edəcək təlimlərdən sonra namizədlər Dövlət İmtahan Mərkəzinin imtahanında iştirak edəcək və müvafiq sertifikat alaraq fəaliyyətə başlayacaqlar.

# Naxçıvan xəbərləri

## Qardaş Türkiyə ilə enerji mübadiləsi



**Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı üçün müvafiq işlər aparılır. Bununla bağlı "Karub Enerji Sənaye və Ticarət", "Nobel Energy Management" və "Baltech Enerji" şirkətlərinin nümayəndələri ilə muxtar respublikanın Dövlət Energetika Xidmətinin nümayəndələri arasında müxtəlif görüşlər keçirilib, ətraflı müzakirələr aparılıb. Bu barədə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinindən məlumat verilib.**

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında elektrik enerjisi mübadiləsi imkanlarına dair zəruri araşdırmaların aparılması məqsədilə Azərbaycan Respublikası energetika nazirinin 3 avqust 2021-ci il tarixli müvafiq əmri ilə yaradılmış işçi qrupla Türkiyə Respublikasının aidiyyəti qurumlarının nümayəndələri arasında müxtəlif səmərəli görüşlər keçirilib. Həmin görüşlərdə hər iki tərəfdə olan ötürücü və paylayıcı yarımstansiyalar, elektrik verilişi xətlərinin mövcud vəziyyəti, sayğacların yerləşmə nöqtələri, rele-mühafizə sistemlərinin tətbiq sahələri, TEİAŞ (Türkiye Elektrik İletim Anonim Şirketi) və Xidmət arasında enerji ixracı (mübadiləsi) ilə bağlı müvafiq "Əməliyyat Müqaviləsi"nin bağlanılmasına görə sənədləşmə işlərinin qarşılıqlı müzakirəsi aparılıb.

Yaxın zamanlarda isə bununla bağlı "Əməliyyat müqaviləsi"nin imzalanması planlaşdırılır. Qeyd edək ki, Türkiyə–Naxçıvan elektrik enerjisi idxalı-ixracı əlaqəsi haqqında ENTSO (European Network of Transmission System Operators) tərəfindən 75 meqavat ixrac (Türkiyə tərəf passiv ada rejimində olmalıdır), 40 meqavat idxal (Naxçıvan tərəf passiv ada rejimində olmalıdır) ötürməyə icazə verilib.

## Gübrələrdən istifadə imkanları artırılır

**Naxçıvan Muxtar Respublikasında ötən ildən etibarən aqrar sahədə yüksək məhsuldarlığa nail olunması məqsədilə dövlət dəstəyi hesabına paylanılan gübrə çeşidlərinin artırılması istiqamətində işlər davam etdirilir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqroservis" ASC-dən "Naxçıvan Aqroservis" ASC-yə 3500 ton ammofos və 200 ton kalium-sulfat gübrəsinin ayrılması təmin edilib.**




Ayrılan gübrələrin muxtar respublikaya daşınmasının təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və "Naxçıvan Aqroservis" ASC-nin əməkdaşları Bakı şəhərinə ezam olunub, müvafiq məsələlərlə bağlı qarşı tərəflə müzakirələr aparıblar.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən qəzetimizə verilən məlumata görə, artıq bundan sonra muxtar respublikada istehsalçılar öz istəklərinə uyğun olaraq dövlət dəstəyi hesabına karbamidlə yanaşı, ammofos və kalium-sulfat gübrələrindən də istifadə edə biləcəklər.

Qeyd edək ki, 2023-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən keyfiyyətli əkin aparılması prioritet olaraq müəyyənləşdirilib. Bu məqsədlə bütün fermerlərlə mütəmadi olaraq maarifləndirmə işləri aparılıb, istehsalçı tələbatının ödənilməsi üçün dövlət dəstəyi hesabına həm nağd formada subsidiyaların, həm də gübrələrin verilməsi təmin olunub.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Səhifəni hazırladı: Vaqif BAYRAMOV, Mirbağır YAQUBZADƏ*
*XQ*




# Azərbaycan təmiz enerji ölkəsinə çevrilir

**Ötən ilin sonlarında Birləşmiş Ərəb Əmirliklərində keçirilən COP28-də fəal iştirak edən SOCAR-ın ortamüddətli və uzunmüddətli perspektivdə dekarbonizasiya hədəfləri elan edilib. Bu sırada 2030-cu ilə qədər bütün əməliyyat sahələrində rutin məşəldə yandırılmanın sıfıra endirilməsi, 2022-ci ilin göstəricisi ilə müqayisədə 2030-cu ilə qədər SOCAR-ın birbaşa aktivləri üzrə “upstream” seqmentində emissiya intensivliyinin 30 faiz azaldılması, həmin ilin göstəricisi ilə müqayisədə birbaşa aktivlər üzrə 2035-ci ilə qədər korporativ emissiya intensivliyinin 30 faiz və ümumi emissiyaların həcminin 20 faiz azaldılması yer alıb.**

Göründüyü kimi, SOCAR-ın strategiyasının mərkəzində 2050-ci ilə qədər “sıfır emissiya”ya nail olmaq kimi iddialı bir hədəf durur. Bu, istixana qazı emissiyalarının əsaslı şəkildə azaldılması, bərpaolunan enerji mənbələrinə investisiya qoyulması və innovativ texnologiyaların tətbiqi deməkdir. Şirkət vurğulanan hədəflərə çatmaq üçün tədbirlərin müəyyənləşdirilməsi, aşağı karbonlu layihələrin inkişaf etdirilməsi, habelə neft-qaz əməliyyatları prosesində dekarbonizasiyanın təmin edilməsi üçün dünyanın nüfuzlu və bu sahədə zəngin təcrübəyə malik qurumları ilə əməkdaşlığa xüsusi önəm verir.

Hazırda “Boston Consulting Group” (BCG) məsləhətçi şirkəti ilə qurulan əməkdaşlıq çərçivəsində iki illik “SOCAR C&S LightHouse” layihəsinə start verilib. Layihə çərçivəsində güclü istixana qazı emissiyalarını daha dəqiq izləməyə və azaltmağa imkan verəcək süni intellektə əsaslanan metan idarəetmə platformasının yaradılması nəzərdə tutulub.



SOCAR ilə BCG məsləhətçi şirkəti tərəfindən icra edilən adıçəkilən layihənin icrası başa çatandan sonra metan emissiyalarının mövcud vəziyyətini qiymətləndirmək, mənbələrini xəritələşdirmək, rəqəmsal monitorinq alətini yaratmaq və yeni emissiya hesabat prosedurlarını qurmaq mümkün olacaq. Bu platforma gələcəkdə metan emissiyaları ilə əlaqədar hesabat hazırlanmasına və emissiyaların monitorinqi sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına mühüm töhfə verəcək.

Yeri gəlmişkən, SOCAR emissiyaların azaldılmasına dair hesabatlıq sisteminin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılmasını və şəffaflığın artırılmasını əsas məqsədlərdən biri kimi qarşıya qoyub. Ətraf mühitin qorunmasına sadiqlik nümayiş etdirən SOCAR 2023-cü ildə təşkil olunan COP28-də irəli sürülən “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”nın (“Oil & Gas Decarbonization Charter” – “OGDC“) həmtəsisçilərindən olmaqla, Xartiyanın Rəhbər Komitəsində təmsil olunan 12 şirkətdən biridir. Bununla da şirkət adıçəkilən Xartiyanın idarə edilməsində birbaşa iştirak edir. “OGDC” Xartiyasının əsas hədəfi üzv təşkilatların neft-qaz əməliyyatlarında dekarbonizasiya fəaliyyətlərini dəstəkləməklə “xalis sıfıra” nail olmaqdır. Dünya üzrə neft hasilatının 40 faizini həyata keçirən 50-dən çox beynəlxalq şirkət “OGDC” Xartiyasının üzvüdür.

Neft-qaz əməliyyatlarında formalaşan metan emissiyalarının dəqiq inventarlaşdırılması dekarbonizasiya baxımından mühüm önəm daşıyır. Bu məqsədlə SOCAR “Neft-Qaz İqlim Təşəbbüsü” (“OGCI”) ilə peyk əsaslı emissiya ölçülməsi layihəsini də icra etmək niyyətindədir. Layihə çərçivəsində SOCAR-ın quruda yerləşən 5 neft-qaz əməliyyatı reallaşdırılan sahəsində “GHGSAT” şirkətinin peyk vasitələrindən istifadə etməklə metan emissiyalarına dair ölçmələr aparılacaq. Bu layihə qabaqcıl texnologiyaların tətbiqi ilə emissiyaların daha dəqiq ölçülməsinə müsbət töhfə verəcək.

SOCAR bundan savayı, BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə əməkdaşlıq çərçivəsində dronlardan istifadə etməklə emissiya ölçmələri layihəsinin icrasını planlaşdırır. Qurum, eyni zamanda, emissiyalar üzrə beynəlxalq hesabat standartlarının hazırlanmasında və bu sahədə şəffaflığın artırılmasında da fəal iştirak edir. Bu, şirkətə dekarbonizasiya sahəsində öz tərəqqisini nümayiş etdirməklə yanaşı, bazar iştirakçıları üçün nümunə olmaq imkanı yaradır.

Emissiyaların azaldılması ilə yanaşı, SOCAR, eyni zamanda, bərpaolunan enerji mənbələrinin inkişafına da sərmayə yatırır. Belə ki, BƏƏ-nin “Masdar” şirkəti ilə əməkdaşlıq çərçivəsində günəş və külək enerjisi, eləcə də “yaşıl” hidrogen istehsalı üzrə bir sıra layihələr həyata keçirir. Bu layihələr SOCAR-ın enerji portfelini şaxələndirməklə bərabər, həm də ölkədə istixana qazı emissiyalarının azaldılmasına töhfə verir.

Müasir texnoloji imkanlardan istifadə etməklə metan emissiyalarının daha dəqiq inventarlaşdırılması Azərbaycanın sözügedən lider şirkətinin ətraf mühitin mühafizəsi sahəsində əsas istiqamətlərindən biridir. Bu məqsədlə SOCAR “TotalEnergies” şirkəti ilə birgə neft-qaz mədən ərazilərində dron əsaslı metan emissiyalarının aşkarlanması və həcminin ölçülməsi tədqiqatlarını həyata keçirir. Layihə çərçivəsində “TotalEnergies” və onun tərəfdaşları tərəfindən hazırlanan “AUSEA” (“Airborne Ultralight Spectrometer for Environmental”) texnologiyasından istifadə edilir.

Qeyd edək ki, “AUSEA” – metan emissiyalarını aşkarlayan, eyni zamanda, onların mənbəyini müəyyənləşdirən dronda quraşdırılmış sensordan ibarətdir. Bu isə neft-qaz obyektlərindən atılan metan emissiyalarının yüksək dəqiqliklə aşkarlanmasına və həcminin ölçülməsinə imkan verir. Bu sahədə ilkin tədqiqatlar “TotalEnergies”in Xəzər dənizindəki fəaliyyət sahələrində aparılıb. Növbəti mərhələlərdə belə tədqiqatların SOCAR-ın dənizdə yerləşən fəaliyyət sahələrində aparılması nəzərdə tutulub.

Hazırda SOCAR bp şirkəti ilə birgə Metan Rəhbər Prinsipləri (“Methane Guiding Principles” – “MGP”) çərçivəsində Qlobal Metanın Azaldılmasının İnkişafı (“Advancing Global Methane Reduction” – “AGMR”) təşəbbüsünü icra edir. Təşəbbüsün əsas məqsədi bp və SOCAR tərəfindən Azərbaycanda fəaliyyət göstərən neft-qaz operatorları üçün metan emissiyalarının ölçülməsi, hesabatlığı, azaldılması fəaliyyətlərinin təşviqi, bu sahədə bilik və bacarıqların təkmilləşdirilməsi, habelə mövcud ən yaxşı texnologiyaların tətbiqini dəstəkləməkdir.

SOCAR havaya atılan emissiyaların azaldılması məqsədilə “Neft Daşları”nda “karbon krediti” mexanizmi əsasında sızmaların müəyyənləşdirilməsi və aradan qaldırılmasını hədəfləyən “Leak Detection and Repair” (“LDAR”) layihəsini də gerçəkləşdirir. Layihə fəaliyyətinə sızmaların müəyyənləşdirilməsi, həcminin ölçülməsi, sızma mənbələrinin ləğv edilməsi və azaldılmış emissiya həcmlərinin sertifikatlaşdırılması daxildir.

Xatırladaq ki, infraqırmızı kamera kimi ən müasir ölçmə avadanlıqlarının tətbiqi ilə layihə ərazisində ölçmələr aparılıb və 171 sızma mənbəyi müəyyənləşdirilib. Bu sahədə ixtisaslaşmış beynəlxalq validasiya şirkətinin audit yoxlamasının nəticələrindən sonra sızma mənbələrinin təmirinə başlanılıb. Layihə nəticəsində azaldılacaq emissiya həcmlərinin sertifikatlaşdırılaraq Avropa bazarında satılacağı nəzərdə tutulub.

Emissiyaların azaldılması ilə “xalis sıfır” hədəfinə nail olmağın əsas yollarından biri də bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsidir. Bu fəaliyyət çərçivəsində SOCAR və “Masdar” şirkəti arasında imzalanan saziş üzrə müvafiq işlər həyata keçirilməkdədir. Qeyd olunan sazişlər quruda 2 QVt gücündə günəş və külək, eləcə də dənizdə 2 QVt gücündə külək enerjisi, habelə “yaşıl” hidrogen layihələrinin icrasını əhatə edir. Beləliklə, SOCAR-ın “yaşıl” enerji şirkətinə çevrilməsi təkcə dəyişən bazar şərtlərinə cavab deyil, həm də şirkətin gələcək nəsillər qarşısında məsuliyyətinin ifadəsidir.

# Qlobal ekoloji durum böhranlı həddə çatıb

## Bəlanın qarşısını hər kəsin və hamının iştirakı ilə almaq olar

**Yer səthinin orta temperaturunun son 100 il ərzində davamlı olaraq artması nəticəsində iqlim dəyişikliyi hazırda ən aktual qlobal problemlərdən birinə çevrilib. İqlim dəyişikliyi günəş aktivliyi və ya vulkan püskürmələri kimi amillər səbəbindən baş versə də, 1800-cü illərdən bəri insan fəaliyyəti istixana qazlarının emissiyalarının kəskin artmasının əsas səbəbi olub. Başqa sözlə, istixana qazlarının istiliyi saxlaması ilə, necə deyərlər, qlobal istiləşməyə meydan açılıb.**



Bu məsələdə əsas səbəb isə qazıntı yanacağının yandırılmasıdır. Bura $CO_2$-nin əsas mənbələri olan elektrik enerjisi istehsalı, istilik, sənaye prosesləri və nəqliyyat vasitələrinin emissiyaları daxildir. Sement və polad istehsalı kimi sənaye fəaliyyətləri də böyük həcmdə $CO_2$ və digər istixana qazlarının emissiyası ilə nəticələnir.

Meşələrin qırılması və aqrar sektorun genişləndirilməsi də əsas amillərdir. Kənd təsərrüfatı, ağac tədarükü və şəhər inkişafı üçün meşələrin qırılması karbon udan ağacların sayını azaldır. Meşələrin və su-bataqlıq ərazilərinin kənd təsərrüfatı ərazilərinə çevrilməsi də emissiyaları artırır və torpağın karbon qazını udmaq qabiliyyətini aşağı salır.

Kənd təsərrüfatı fəaliyyətlərindən bəhs edərkən, həmçinin qeyd etmək olar ki, kənd təsərrüfatı heyvanları tərəfindən qidanın həzm edilməsi prosesində güclü istixana qazı olan metan ($Ch_4$) formalaşır. Sintetik gübrələrdən istifadə digər güclü istixana qazı olan azot oksid ($N_2O$) emissiyası ilə nəticələnir.

Vulkan püskürmələri və günəş aktivliyi kimi təbii amillər də iqlim dəyişikliyində müəyyən rol oynasa da, onların təsiri insan fəaliyyəti ilə müqayisədə azdır. Misal üçün, vulkanlar karbon və digər qazlar buraxsalar da, onların emissiyaları qazıntı yanacaqların yandırılması nəticəsində yaranan tullantılarla müqayisədə nisbətən aşağıdır. Günəş radiasiyasındakı dəyişikliklər də son iqlim tendensiyalarına insan fəaliyyəti ilə müqayisədə daha az təsir göstərir.

Buzlaqların əriməsi ilə Yer səthi daha çox günəş enerjisini udmaqla və istiləşməni sürətləndirməklə daha az əks etdirir. Buzlaqların əriməsi metan və karbon buraxır ki, bu da qlobal temperaturu daha da artırır.

İqlim dəyişiklikləri insan sağlamlığına, qida məhsullarının istehsalına, yaşayış və iş yerləri, eləcə də təhlükəsizliklə əlaqədar məsələlərə də təsir göstərir. Bundan ən çox kiçik ada dövlətlərində və inkişaf etməkdə olan ölkələrdə həssas əhali zərər çəkir. Dəniz səviyyəsinin yüksəlməsi və duzlu suyun artması artıq əhalini köçməyə məcbur edir, uzun sürən quraqlıqlar isə aclıq riskini artırır. Gələcəkdə daha çox insanın ekstremal iqlim dəyişmələri nəticəsində öz evini tərk etmək məcburiyyətində qalacağı gözlənilir.

İqlim dəyişikliyi ilə mübarizə həm hökumətlər, həm də bizneslər tərəfindən mühüm maliyyə sərmayəsi tələb edir. Lakin bu sahədə fəaliyyətsizlik daha çox nəzərə çarpır. Zəngin ölkələr üçün mühüm addım inkişaf etməkdə olan ölkələrə daha ekoloji iqtisadiyyata adaptasiya və keçiddə yardım üçün hər il 100 milyard dollar ayırmaq öhdəliyini yerinə yetirməkdir.

# COP29 maarifləndirməsi



**COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətindən verilən xəbərə görə, qurumun Məlumat Mərkəzində maarifləndirmə məqsədilə növbəti interaktiv sessiyalar təşkil olunub. İqlim, ekologiya, dayanıqlı gələcək və inklüzivlik mövzularına həsr edilən sessiyaların birinci günü uşaqların bu mövzularda məlumatlılığının artırılması məqsədilə yaradıcı master-klasslar, ikinci günü isə müvafiq sahələrdən olan ekspertlərin iştirakı ilə trend-sessiya təşkil olunub.**

Sessiyanın ilk günündə uşaqlar üçün dayanıqlı həyat tərzi üzrə praktiki bacarıqların formalaşdırılmasına yönələn “Orqanik məktəb” master-klassları, həmçinin ətraf mühitin mühafizəsi məsələlərini kreativ şəkildə canlandıran “Plastik və balıqlar” və “Ağaca suallar” adlı immersiv şoular təşkil edilib. Tədbir çərçivəsində uşaqlar planetimizin üzləşdiyi ekoloji problemlər, bu problemlərin həllində hər bir fərdin üzərinə düşən məsuliyyət və dayanıqlı təşəbbüslərin vacibliyi ilə bağlı məlumatlandırılıblar.

Tədbirin ikinci günü təşkil olunan inklüzivlik mövzusu ilə bağlı müzakirə sessiyası isə müvafiq sahələri təmsil edən ekspertlərin iştirakı ilə iqlim və inklüzivliyin sağlam həyat tərzi, təhsil və incəsənət ilə sıx əlaqəsinin vurğulanmasına yönəlib. Trend-sessiyada iqlim dəyişikliyinin xüsusi qayğıya ehtiyacı olan insanlara təsiri, iqlim dəyişikliyi ilə mübarizədə göstərilən qlobal səylərdən heç kimin kənarda qalmamasını təmin etmək üçün dayanıqlı təşəbbüslər, inklüziv siyasət və təcrübələrin iqlim fəaliyyətinə inteqrasiyasına dair anlayışlar müzakirə olunub.

Tədbirin sonunda “DanceAbility” metod üzrə qurulan inklüziv rəqs performansı nümayiş etdirilib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Repressiya aynasına çevrilən qəzet

## Redaksiya rəhbərliyi özü də bu qırğının qurbanı olmuşdu

**Repressiyanın tüğyan etdiyi 30-cu illərdə – çox qorxunc və ziddiyyətli bir dövrdə nəşrini davam etdirən “Kommunist” qəzeti vahimə və qadağalara baxmayaraq, milli maraqları qorumağa çalışmışdır. Ümumiyyətlə, 30 və 40-cı illərin partiya-sovet mətbuatında dərc edilən yazılar göstərir ki, qəzet-jurnallar təmsil etdikləri hakimiyyətin mövqeyini ifadə etməkdən yaxa qurtara bilməmişdir.**



“Partiyalı və xəlqi” sovet mətbuatında bu mənzərə birmənalı olaraq yuxarıların ciddi “diktəsi” ilə müşayiət olunmuşdur. Azərbaycanda kommunist-bolşevik ideallarının baş informaiya və təbliğat rupору olan “Kommunist” qəzetinin başqa mövqedə dayanması mümkün deyildi. Əslində, sovetlərin ilk illərində əlifba islahatının, Şərq xalqları və Türkoloji qurultayların keçirilməsində qəzet dövlətin yeritdiyi ideoloji siyasəti əks etdirmişdir.

Bununla heç də qəzetin fəaliyyət siferasını və xidmətlərini azaltmaq fikrində deyilik. Əslində, ayrı-ayrı tədqiqatçıların da dediyi kimi, Elmlər Akademiyasının olmadığı, ədəbi-bədii təşkilatların yeni-yeni formalaşdığı bir vaxtda “Kommunist” qəzeti redaksiyası milli elmi-mədəni qüvvələri öz ətrafında toplayan başlıca mənəvi mərkəzə çevrilmişdi. Bu gün bu reallıqları nəzərə almadan qəzetin fəaliyyətinə qara eynəkdən baxmaq obyektivlikdən uzaq olardı. Nəhayət, qəzet, milli jurnalist kadrların yetişməsində və formalaşmasında mühüm bir yaradıcılıq məktəbi rolunu yerinə yetirmişdir.

Bu ənənə uzun illər “Kommunist” qəzetinin fəaliyyətində əhəmiyyətli rol oynamışdır. Respublikanın ən yaxşı jurnalist qüvvəsinin cəmləşdiyi kollektivin yaradıcı əməyi ilə nəşr edilən qəzet təəssübkeş ziyalıların da fəal tribunasına çevrilmişdir. Eyni zamanda, qəzetin ideya-siyasi səviyyəsi, peşəkarlığı hər zaman sahə qəzetlərinə, bölgələrdə nəşr olunan dövri mətbuata da örnək olmuşdur.



Bütün xalqların proletarları, əlləşin.
XIX ILDIR ÇIXIR
Qommunist
APREL 18 Bazar ertəsi
Mosqvada Azərbajçan inçəsənəti dəqadası bəjyk myvəffəqijətlə qurtarmışdır. Hökumətimiz Azərbajçan inçəsənət ustalarından 51 nəfərini SSRI ordenləri ilə təltif etmişdir.
Azərbajçun inçəsənətinin ordenli ustalarına salam!
TARIXI QƏLƏBƏNIN MYKAFATЬ
M. F. Axundov adına Azərbajçan Dəvlət Opera və Balet Teatrına Lenin ordeni ilə təltif edilməsi haqqında SSRI Baş Soveti Prezidiumunun
Mərhum compozitor M. Maqomajevin ajiləsinə jardım olaraq pul verilməsi haqqında SSRI Baş Soveti Prezidiumunun

Bir məsələni də unutmamalıyıq ki, dövrün birinci rəsmi partiya və dövlət qəzeti olan “Kommunist” kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərirdi. Bu qəzet həmişə tarixi hadisələrin mərkəzində olmuş, xalq kütlələrinə mütərəqqi ideyalarla təsir göstərmiş, respublikanın gündəlik həyatının önəmli məsələlərinin həllində siyasi rəhbərliyin mühüm təsir vasitəsi olmuşdur. Bir məsələni də unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi, onun vəsaiti ilə nəşr olunurdu, amma bununla belə milli təəssübkeşliyini heç vaxt unutmurdu və bunun cəzasını çəkirdi.

Sual oluna bilər ki, siyasi rəhbərliyin qəzetdən tələbi nə idi? Təbii ki, sovet ideologiya maşınının tələbləri qəzet səhifələrində mövcud ideologiyanın cəmiyyətə xoşbəxtlik, bərabərlik gətirəcəyinə inam yaratmaq, əməkçi insanın fədakarlığını tərənnüm etmək, milli əhval-ruhiyyəni aşağılamaq və s. mövzulardan yazmaq idi. Əli qələm tutanlar belə yazmağa məcbur edilirdilər. Əks təqdirdə yazarlara “müsavatçı, millətci, pantürkist, siyasi düşmən” kimi damğalar vurulurdu. Onlar yeni qurulan cəmiyyətin düşməni, keçmişin tör-töküntüsü kimi hədəfə çevrilirdilər.

Bu az imiş kimi, qara yaxılanların qohum-qardaşları və ailə üzvləri də “xalq düşməni” elan edilirdilər. Digər tərəfdən, cəmiyyətin bu arzuolunmaz iyrəncliklərini “tərənnüm” edən qəzet, həm də yaxın tariximizin olaylarının və qanla yazılmış tarixinin bugünkü nəsillərə və gələcəyə çatdırılmasında qiymətli mənbədir. Cəza hadisələrinin təşkilində qəzetin rolunun nədən ibarət olduğuna birmənalı qiymət verilməsi nə qədər çətin və ziddiyyətli olsa da, günün siyasi gedişatının təhrif edilmədən, olduğu kimi cəmiyyətə çatdırılması və tarixə həkk edilməsi qəzetin ən böyük xidməti olmuşdur.

“Kommunist”in səhifələrində yer alan çoxsaylı məqalələrə diqqət etməklə baş verən faciəli hadisələrin xeyli dərəcədə açıq şəkildə cəmiyyətə çatdırılmasının şahidi oluruq. Bütün tale və həyat yolunu Azərbaycanla bağlayan, xalqın xoşbəxtliyini öz xoşbəxtliyi bilən, ADR-nin Türkiyədə ilk səfiri olmuş Yusif Vəzir Çəmənzəminli “Kommunist” qəzetində belə tənqid olunurdu: “Yusif Vəzir sovet ədəbiyyatının ona vermiş olduğu imkanları doğrultmaq üçün bugünkü həyatımızdan və yaxud köhnə müsavat quruluşunu ifşa edəcək əsərlər yazmaq əvəzinə, özünü keçmiş qədim tarixi dövrlərə atır və öz mövzularını oradan seçir. O, “Qızlar bulağı”, “İki od arasında” kimi bu gündən çox-çox uzaq əsərlər yazmışdır. Halbuki Yusif Vəzir öz iştirak etdiyi Müsavat hökumətinin avantürasını, şovinizmini və xalqı soymasını “Qızlar bulağı”ndan daha asan yaza bilərdi. Bəs nə üçün yazmayır? Nə üçün o, Müsavat hökumətinin Azərbaycan xalqını çapıb-talamasını göstərməyir? Sovet yazıçısı adını daşıyan bir şəxs üçün ölkəmizdəki parlaq qalibiyyətlər maraqsız qala bilərmi?”

Eləcə də həmin məqalədə Tağı Şahbazi belə təqdim olunurdu: “Vaxtilə cibində partiya bileti daşıyaraq orda-burda millətçi fikirlər yürüdən, nəinki bolşevik adına, hətta adi bir sovet vətəndaşına belə layiq olmayan meşşan, ikiüzlü fəaliyyətlə məşğul olan Tağı Şahbazi – bütün yaradıcılığı bir xoruza yük ola bilən bu yazıçı haqqında olduqca şişirdilmiş fikirlər söylənilirdi”.

Səhifələrində müntəzəm olaraq yer alan bu cür yazılara, repressiya dövründə, demək olar ki, qəzetin hər bir sayında rast gəlmək olur. Hədəf isə “Ruhulla Axundov və Mikayıl Hüseynovun yardımı və ittifaq rəhbərliyinin sinfi sayıqlığını itirməsi, siyası korluğu, çürük liberalizmi sayəsində hər boyalı xalq düşməni, yapon-alman-faşist agentləri, trotskist, müsavatçı, pantürkist ünsürlər – Əli Nazim, Əhməd Cavad, Hüseyn Cavid, Yusif Vəzir, Sanılı, Seyid Hüseyn, Musaxanlı, Müşviq, Mümtaz, Qantəmir, Sultan Məcid Qənizadə, Talıblı, Qurban Musayev, Tağı Şahbazi, Mikayıl Rəfili, Əli Razi və Zinət Zakirov” kimi milli ziyalılar idilər.

“Kommunist” qəzetində belə qarayaxmalar, iddialar təkcə Yusif Vəzir, Hüseyn Cavid barədə deyil, eyni zamanda, pantürkist mövqeyində olmasına görə Əhməd Cavad və onun “quyruğu” kimi tənqid olunan Mikayıl Müşfiq haqqında da söylənilirdi. Əhməd Cavad haqqında “tənqidi fikirlər”, əslində, həqiqətdən çox-çox uzaq, qeyri-ciddi, haqsız ittihamlar idi: “Əhməd Cavad Azərbaycan xalqının ən qatı düşməni olan Müsavat hökumətinin sevimlisi və dərslik yazan şairi olmuşdur. Özünün ən səmimi şeirini, Müsavatın erməni-azərbaycanlı əməkçilərinin qanı ilə boyanmış və Azərbaycan işçi və kəndlilərinin ingilis imperialistlərinə və Türkiyə sultanlarına satılması ilə möhkəmlənən bir murdar bayrağına həsr etmişdir”.

Digər bir məqalədə göstərilirdi ki, Azərbaycan Sovet Yazıçılarının III plenumunda çıxış edən Azərbaycan K(b) PMQ kultur-maarif şöbəsinin müdiri Hökumə Sultanova “Əhməd Cavadın murdar sifətini bütün çılpaqlığı ilə açmışdır” və plenum “17 il ərzində öz düşmənçilik duyğularını dəyişmədiyi üçün” Əhməd Cavadı yazıçılar sırasından xaric etmişdir.

Başqa bir müəllif Ə.Əkbər bir az da irəli gedərək yazırdı: “Müsavatçıların əl tulası olan Müşfiqin həyasızlığı o dərəcəyə çatmışdır ki, o, irəliləyən sovet ədəbiyyatına müqavimət göstərmiş, sovet yazıçıları ittifaqının rəhbərləri S.Şamilov və S.Vurğunun qanadı altında son günədək öz kontrrevolüsion pozucu işlərini yeritməyə imkan tapmışdır”.



Kommynist
Ş. C. Mərqəzi Icraijjə komitəsi və Xalk Komisarları Şyrasının MANIFESTI.
Bizi galibijjətlərə çatdıran kommynist firkəsinin bajragını jyqsəqlərə.
10 IL.


Eyni ittihamlar dövrün alimləri, aktyorları haqqında da deyilirdi. “Azərbaycan Dövlət Dram Teatrının burjua nasionalistlərinin əlaltılarından təmizlənməsi”, “Saf, revolusyon Azərbaycan dili haqqında” adlı məqalələrdə Ulvi Rəcəb, Mirzağa Əliyev, Möhsün Sənani, Fatma Qədri, Şəmsi Bədəlbəyli, Rüstəm Səidov kimi sənətkarlarımızın teatr sənətimizə, dilçi alimlərimiz Bəkir Çobanzadə, İsmayıl Hikmət, Vəli Xuluflu kimi məşhur ziyalıların Azərbaycan dilinə vurduğu “ziyanlardan” danışılır.

Tədqiqatçı Gülər Qasımova bu cür ittihamların yer aldığı "Kommunist" və "Gənc işçi" qəzetindən toplanmış materialların bir qismini “Açıq ədəbiyyat” adlı kitabçasında təqdim edir. Tərtibçi repressiyaya məruz qalan yazıçıların arasındakı münasibətlərlə yanaşı, onların qəzet səhifələrində amansızcasına təhqir olunmaları barədə yazıların bir qismini çağdaş oxucuya təqdim edir: “Bu gün o dövrün şairləri haqqında çox danışılır. Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Hüseyn Cavid və daha kimlər... Onların bir çoxları hətta bütləşdirilir, onları tənqid tabulaşıb artıq. Bu gün Cavid deyərkən gözümüzün qabağında yeyən, içən normal şair gəlmir. Biz faciəli həyat təsəvvür edirik, Cavidin kədərli üzünü görürük. Cəfər Cabbarlı deyəndə heç kəs müasirləri ilə intriqalar yaşayan bir yazıçı, dramaturq təsəvvür etmir. O saralmış və unudulmuş qəzet səhifələrində nə məqalələr, nə yazılar vardı”.





Rejimin tələblərindən doğan və mətbuatda yer alan bu yazılara “günün tələblərindən doğurdu” deməklə bəraət qazandırmaq olarmı? Bu, o qədər mümkünsüzdür ki, az qala, 1937–38-ci illərin repressiyasına bəraət qazandırmaq kimi görünərdi. Faciənin adına uyğunluğu və amansızlığı ondadır ki, o illərin repressiyası hətta qəzetin sovet rejiminə və ideologiyasına can-başla xidmət edən əməkdaşlarından da yan keçməmişdir.

Qəzetə müxtəlif illərdə redaktorluq etmiş Ruhulla Axundov, Əliheydər Qarayev, Böyükağa Talıblı, Həbib Cəbiyev, tanınmış yazarlar Xəlil İbrahim, Fərhad Ağazadə, qəzetlə əməkdaşlıq edən neçə-neçə yazıçı-şair millətçi damğası ilə qətlə yetirilmişlər. Repressiya qurbanları olan ziyalıların kimliyinin, xidmətinin nəzərə alınmaması da göstərir ki, bu, əslində, millətə qarşı qırğın siyasəti olmuşdur.

Məhəmməd Əmin Rəsulzadəni, Əli bəy Hüseynzadəni rejimin düşməni sayan “Kommunist” qəzetinin redaktoru, daha yüksək vəzifələrin etibar edildiyi Ruhulla Axundov Sovet Azərbaycanının ideoloji rəhbərlərindən idi. “Proletariatın dahi rəhbərləri Marks və Leninin” əsərlərini ilk dəfə Azərbaycan dilinə çevirən də, onların həyat və fəaliyyətini Azərbaycan oxucusuna təqdim edən də, “Kapital”ı bəşərə yol göstərən əsər adlandıran da o idi. Hətta 1927-ci ildə Lenin haqqında “Böyük alimlər, məşhur ustadlar, nəhayət, “124 min” peyğəmbərlər hamısı bir yerdə və hər birisi təklikdə unudular, lakin Lenin unudulmaz; çünki bunların hamısının bir yerə yığsan bəşəriyyətin dirilməsi yolunda Leninin etdiyini edə bilməyiblər” deyən də o, idi.

Lenini tərcümə edən, acınacaqlı ölümünə qədər ona inanan bu ideoloq 1937-ci ilin dekabrında işə gedərkən həbs olundu və 1938-ci ildə Leninin doğum günü - 22 apreldə güllələndi. M.C.Bağırov sonralar öz məhkəməsində Ruhulla Axundovu “vicdanlı kommunist” adlandırırdı, M.Ə.Rəsulzadə isə 1952-ci ildə onun haqqında yazmışdı: “Müsavatçılıq və panturanizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov “panturanizmin zəhərli bir nümayəndəsi və “Müsavat” partiyasının zavallı bir agenti” kimi günahlandırıldı”.

***Namiq ƏHMƏDOV***
***XQ***

# Naxçıvan Dövlət Universiteti ilklərə imza atır

**Təkcə ölkənin deyil, bölgənin qabaqcıl təhsil ocaqlarından sayılan Naxçıvan Dövlət Universiteti həm də müasir çağırışlara cavab verən elm mərkəzi kimi tanınır. Yeni dünya çağırışlarının içərisində təhsilalma istiqamətindəki göstəricilərin artan dinamikası NDU-nun strateji inkişaf planının başlıca istiqamətlərindəndir.**

Bu gün müasir Azərbaycanın mövcudluğunu ulu öndər Heydər Əliyevə borclu olduğumuz kimi, Naxçıvan Dövlət Universitetinin mövcudluğu da dahi şəxsiyyətin adı ilə bağlıdır. Heydər Əliyev Naxçıvan Dövlət Universitetini hər zaman himayə edib, onun inkişaf yolunu dəqiq müəyyənləşdirib. O, dəfələrlə ziyarət etdiyi universitet barədə deyirdi: "Çox xoşbəxtəm ki, mən bu universitetin təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam. Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu universitet indi böyük şöhrətə malikdir. Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Universitet isə Naxçıvan təhsilinin zirvəsidir".

Universitetə yüksək dövlət qayğısı Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Yeni infrastrukturların açılışlarını etdiyi NDU barədə dövlət başçısının fikirləri bu gün ali təhsil ocağının çoxminli kollektivi üçün böyük situmul yaradıb, fəaliyyət istiqamətinə çevrilib: "Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada böyük işlər görülür. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilib. Burada xarici ölkələrdən tələbələr oxuyurlar. Bu da onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksəkdir. Burada görüləcək işlər, yeni fakültələrin açılması və gələcək planlar, əlbəttə, imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevrilsin".

Bəli, yüksək dövlət qayğısı ilə əhatə olunmuş, geniş profilli, həmçinin tədqiqat yönümlü fəaliyyətə istiqamətlənmiş NDU-da nümunəvi universitet modeli formalaşıb. Universitet şəhərciyində onlarca tədris korpusu, elektron kitabxana, konservatoriya, sosial xidmət mərkəzi, xəstəxana, Olimpiya İdman Mərkəzi, 2 stadion, müasir tipli tələbə və qonaq evi, 3 internet mərkəzi, media mərkəzi, universitet televiziyası (UTv), "Nuhçıxan" radiosu, nəşriyyat, "Elmi əsərlər" jurnalı, "Yeni fikir" qəzeti və bir neçə muzey fəaliyyət göstərir.

NDU ölkənin ali təhsil ocaqları arasında ən çox – 9 ölkədən 2 minə yaxın xarici tələbənin təhsil aldığı elmi müəssisədir. Dünya təcrübəsində olduğu kimi, universitetin nəzdində 3 kollec, bir gimnaziya və beynəlxalq məktəb fəaliyyət göstərir. Son 5 ildə qazanılan uğurlar universitetin elmi axtarışlarının davamlılığını, əhatəliliyini və dinamikliyini daha da sürətləndirməyə təkan vermiş, onun fəaliyyətinin çox ilklərə imza atmasına səbəb olmuşdur. NDU-da son iki ildə baş verən yeniliklər isə onu dünyanın qabaqcıl universitetləri ilə müqayisə etmək imkanı verib. 2022-ci ildə Naxçıvan Dövlət Universitetində IELTS qeydiyyat və imtahan mərkəzi, 2023-cü ildə isə SAT qeydiyyat və imtahan mərkəzi yaradıldı. Keçən il ali təhsil ocağının qazandığı ən böyük uğurlardan biri İT sahəsi üzrə dünyanın nüfuzlu şirkəti IBM arasında Əməkdaşlıq Memorandumunun imzalanmasıdır. Dünyanın aparıcı universitetləri ilə daimi əlaqələrin qurulması üçün IBM-in 170 ölkəni əhatə edən Qlobal Ekosistemi ilə uyğunlaşmasına dair memoranduma əsasən, IBM şirkəti NDU-da Proqramlaşdırma Mühəndisliyi İnstitutu yaradacaq. Bütün bunlar universitetin rəqabətə davamlılığının artırılması, ikili diplom proqramlarının həyata keçirilməsi, beynəlxalq əlaqələrinin inkişafı istiqamətində müsbət addımları ilə yadda qalmaqla yanaşı, eyni zamanda, Naxçıvanda ingilisdilli mühitin inkişafına töhfə verəcək.



2023-2024-cü tədris ilindən NDU-da kadr potensialının artırılması, xarici təcrübənin öyrənilməsi, tədqiqatların təkmilləşdirilməsi və universitetlərarası akademik əməkdaşlığın gücləndirilməsi məqsədilə əcnəbi müəllimlərin tədris və tədqiqat işlərinə cəlb edilməsi xüsusi qeyd olunmalıdır. Universitetin son illər tətbiq etməyə başladığı tələbəyönümlü təhsil sisteminə və təlim nəticələrinə əsaslanan yeni yanaşma, tədrisin keyfiyyətinin və elmi fəallığının artırılması, insan kapitalının formalaşdırılması "Tədqiqat" və "Sahibkar" universitet statusu qazanma yolunda inamla irəliləməsinin əyani təzahürləridir.

2023-cü ildə Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğunda yüksək nəticə göstərən məzunların arasında NDU-nun üstün yer qazanması təsadüfi deyil. Son 20 ildə respublikamızda qara qızılın insan kapitalına çevrilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, gənclərin innovasiyalara, yeni texnologiyalara çıxış imkanlarının genişləndirilməsi məqsədilə böyük həcmli işlər görülüb. Ötən dövr ərzində Naxçıvan Dövlət Universiteti də Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində müəyyən edilmiş hədəflərə inamla və qürurla çatmaqdadır.

Dövlət başçısının "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamında Naxçıvan Dövlət Universitetinə də yer ayrılması, qarşıdakı illərdə uğurlu fəaliyyəti ilə bağlı prioritetlərin müəyyənləşdirilməsi universitetə dövlət qayğısının parlaq təzahürüdür.

Yeri gəlmişkən, dövlət proqramının icrası çərçivəsində Naxçıvanda ilk dəfə olaraq NDU Beynəlxalq Məktəbinə Kembricin rəsmi sertifikatı verilib. Bununla da NDU Beynəlxalq Məktəbi dünyada fəaliyyət göstərən Kembric məktəbləri şəbəkəsinə qoşulub. Yəni, Kembric proqramı ilə dərs deyəcək yerli müəllimlərin üzünə İngiltərə universitetinin zəngin inkişaf resursları, dərs materialları, təlimləri açılıb.

Dövlət proqramının qəbulundan bir il ötməsinə baxmayaraq, orada qeyd olunan vəzifələri strateji hədəf kimi müəyyən edən universitet onların böyük bir qismini həyata keçirib.

Bu gün Naxçıvan Dövlət Universiteti ölkəmizdə reallaşdırılan bir çox beynəlxalq konfrans, festival və görüşlərə evsahibliyi edir. Ötən iki ildə reallaşdırılan I Beynəlxalq Tibbi Forum, iki il ardıcıl olaraq "Qərbi Azərbaycana Qayıdış" festival/konqres və eləcə də digər layihələrdə ölkəmizin, eləcə də dünyanın tanınmış elm xadimləri, təhsil ictimaiyyətinin qabaqcıl nümayəndələri, tədqiqatçı alimlər, Naxçıvan Dövlət Universitetində bir araya gələrək, kitab təqdimatları etmiş, mühazirələr oxumuş, professor-müəllim və tələbə heyəti ilə görüşlər keçirimişlər.

NDU-da dünya şöhrətli türk alim, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncərlə görüşün keçirilməsi ali təhsil ocağının tarixində əlamətdar hadisələrdən biri oldu.

Böyük alimin Azərbaycana səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin dəvəti ilə Naxçıvana səfəri baş tutdu. Nobel mükafatı laureatı Əziz Səncər göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını bildirib, Naxçıvanda olmaqdan məmnunluğunu belə ifadə edib: "Naxçıvanda bu qədər diqqət görəcəyimi gözləmirdim. Burada naxçıvanlıları yaxından tanıdım. Hamınız bizim qardaşlarımızsınız, hamınızı çox sevdim. Ən türksevər insanları Azərbaycan torpağı yetişdirib".

Bəli, Naxçıvan Dövlət Universiteti milli təhsilin inkişafı üzrə uzaq prioritetlərinə doğru inamla addımlayır. Biz bu ali təhsil ocağının timsalında innovasiyalara açıq, dövrün qlobal trendlərinə qoşulan, müasir tələblərə uyğun mütəxəssis yetişdirən müasir təhsilin sisteminin yeni üfüqlərini görürük.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Niyazinin sənət həmişəyaşarlığı



**Onu milli musiqi mədəniyyətimizin tarxində "qızıl mərhələnin rəmzi" də adlandırırlar. Azərbaycanda dirijorluq məktəbinin formalaşması bu görkəmli sənət adamının adı ilə bağlıdır. İllər ötsə, zaman dəyişsə də dünya şöhrətli dirijor, bəstəkar, Xalq artisti Niyazi Tağızadə-Hacıbəyovun ürəklərdə yeri bir az da möhkəmlənir. Ənənəyə uyğun olaraq, bu il də görkəmli sənətkarın anadan olmasının 112-ci ili münasibətilə Fəxri xiyabanda məzarı ziyarət edildi.**

Mərasim ümummilli lider Heydər Əliyevin Maestro Niyazi haqqında səsləndirdiyi fikirlərin videoçarxı ilə başladı.

**Tanınmış bəstəkar, Xalq artisti Azər Dadaşov Niyazi sənətinin əbədiliyindən söz açdı. Ölməz sənətkarın yaradıcılığının hələ sağlığında ümumxalq məhəbbəti qazandığını xatırladan sənətkar söylədi:**

– 1912-ci il avqustun 20-də Tiflisdə anadan olan Niyazi əmisi Üzeyir Hacıbəylinin himayəsində böyüyüb. Maestronun böyük sənət uğurları qazanmasında onun istedadı ilə yanaşı, Üzeyir bəyin də əvəzsiz xidmətləri olub. Niyazi dirijorluqda məharətini olduğu qədər bəstəkarlıqda da göstərib. Təsadüfi deyil ki, onun adı milli bəstəkarlıq məktəbinin görkəmli simaları ilə yanaşı çəkilir. "Xosrov və Şirin" operası, "Zaqatala", "Azərbaycan" süitaları, "Rast" simfonik muğamı və digər əsərlər Niyazinin qələminin məhsuludur. O, 1986-cı ildə R.Taqorun süjeti əsasında yazdığı "Çitra" baletinə görə "Cəvahirləl Nehru" mükafatına da layiq görülüb.



Tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri Fəxri xiyabanda maestronun məzarı önünə gül dəstələri düzdülər, xatirəsinə ehtiram nümayiş etdirdilər.

**Maestronun ev-muzeyində təşkil edilmiş toplantıda bu sənət saxlancının direktoru, Əməkdar mədəniyyət işçisi Rza Bayramov unudulmaz sənətkarın yaradıcılığı və insani keyfiyyətləri barədə məlumat verdi:**

– Niyazi Azərbaycan xalqının "milli sərvəti"dir. Onun adı hər yerdə ehtiramla çəkilir. Maestro mədəniyyətimizin zənginləşməsinə bir çox töhfələr bəxş edib. Görkəmli sənətkarın yaradıcılığında ona əsas şöhrət gətirən dirijorluq olub. Niyazi sənəti ilə təkcə Azərbaycan deyil, bütün dünyası mədəniyyətinə də xidmətlər göstərib. Qısa müddətdə dünya onu tanıyıb, o da xarici aləmdə Azərbaycanı tanıtdırıb. O, nadir insanlardandır ki, sənəti ilə şəxsiyyəti daim vəhdət halında olub.

Mərasimdə qeyd edildi ki, maestronun həyat və fəaliyyəti öyrənilir və təbliğ edilir. Musiqi Mədəniyyəti Dövlət Muzeyində və onun filialı olan ev-muzeyində sənətkarın zəngin yaradıcılığına həsr olunmuş tədbirlər keçirilir. Hər il maestroya aid irsin toplanması, tədqiqi və nümayişi istiqamətində səmərəli işlər görülür. Son 2 ildə 47 yeni material əldə edilib. Hazırda isə muzeydə qorunub saxlanılan eksponat və sənədlərin sayı 6 min 500-ü ötüb. Bunlar əsasən, maestronun müəllif not əlyazmaları, proqramları, sənədləri, kitabları, afişaları, rəsm əsərləri, qramofon valları, fotoşəkilləri və şəxsi əşyalarından ibarətdir.

Ənənəyə uyğun olaraq bu dəfə də memorial-muzeydə "Açıq qapı günü" təşkil olunub.

Sonra Azər Dadaşov musiqi əsərlərindən ibarət kitabını muzeyə hədiyyə etdi, fortepianoda "Sumqayıt" kantatası və "Qızıldan" mahnısından fraqmentlər səsləndirdi.

Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əlisəfdər Hüseynov və digərləri çıxışlarında görkəmli sənətkarın həmişəyaşarlığından söz açdılar. Onun musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərini vurğuladılar.

Sonda Niyazi haqqında sənədli filmlər göstərildi, musiqi müəllifi olduğu ekran əsərlərinə baxıldı.

Anım mərasimi konsert proqramı ilə davam etdi.

***Ceyhun ALIŞLI***
***XQ***

# Heykəlləşən "yaşıl" ideyalar

**Xətai Sənət Mərkəzi yeniyetmə və gənc heykəltaraşlar üçün "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Əllərin sehri" adlı yaradıcılıq müsabiqəsi elan edib.**

Bu barədə XQ-yə məlumat verən sənət mərkəzinin direktoru Zahid Əvəzov bildirdi:

– Müsabiqədə 12-21 yaşlı əl qabiliyyəti olan yeniyetmə və gənclər iştirak edəcəklər. Yarışın məqsədi yeni nəslin yaradıcılıq ruhunun yüksəldilməsi, asudə vaxtdan səmərəli istifadə, əl işinin xüsusi enerji və dəyər daşıdığını göstərməkdir. Gənclər müxtəlif kompozisiya nümunələri ilə müsabiqəyə qoşula bilərlər.

İştirak etmək istəyənlər sehreller@gmail.com elektron ünvanına sənədlərini göndərməklə müraciət edə bilərlər. Müsabiqəyə müraciət oktyabrın 15-dəkdir.

Mərkəzin rəhbəri onu da qeyd etdi ki, müsabiqəyə ən çox 2 əsər göndərmək olar. Sonda qalib gələn əsərlər seçilərək, nümayiş olunacaq.




Qeyd edək ki, müsabiqə Mədəniyyət, Elm və Təhsil nazirlikləri, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Uşaq Sənəti Qalereyasının birgə təşkilatçılığı ilə keçirilir.

***C.BALABƏY***
***XQ***

# Azərbaycanlı tələbələr ABŞ-də təşkilatlanırlar



**Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə ABŞ-nin Çikaqo şəhərində bu ölkədə təhsil alan azərbaycanlı tələbələrin görüşü keçirilib. Müzakirələrdə xaricdəki azərbaycanlı gənclərin Vətənə bağlılığı və bu sahədə komitənin həyata keçirdiyi layihələr diqqət mərkəzində olub.**

Orta Qərb Ştatları Azərbaycan Tələbə Alyansının rəhbəri Nərgiz Həbibova qurumun məqsədi, görülən işlər barədə ətraflı məlumat verib. O, azərbaycanlı tələbələrin təşkilatlanması, həqiqətlərimizin Qərb cəmiyyətinə çatdırılması, ABŞ-dakı dost icmaların üzvləri ilə əməkdaşlıq barədə söz açıb.

Çikaqo-Kent Hüquq Kollecinin Beynəlxalq Proqramlar üzrə rəhbəri Adam Veber təşkilata uğurlar arzu edib və ABŞ-dakı azərbaycanlı tələbələri hər zaman dəstəklədiyini ifadə edib.

Amerika Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzinin təsisçilərindən Fərid Məmmədov tələbələrə tövsiyələrini verib, Azərbaycanı tanıtmaları istiqamətində onlara daim dəstək olacaqlarını bildirib.

Toplantıda ölkəmizin diasporun fəaliyyəti ilə bağlı videoçarxlar nümayiş olunub, irimiqyaslı layihələrdən danışılıb.

***XQ***

Beynəlxalq həyat

# Serbiyanın Qərb şübhələri...



(əvvəli 1-ci səhifədə)

Dövlət Departamenti ötən şənbə günü "Birləşmiş Ştatların Serbiyadakı etirazlara müdaxiləsi və ya Serbiya hökumətinə qarşı etirazları dəstəkləməsi ilə bağlı hər hansı iddianın yalan olduğunu" deyib. Bu bəyanat son günlər rəsmi Belqradın Qərbin ölkədə litium hasilatına qarşı Serbiyanın hər tərəfini bürümüş etirazları dəstəkləməsi ilə bağlı ittihamlarına cavab olaraq verilib. Xatırladaq ki, əvvəlcə Serbiya Prezidenti Aleksandar Vuçiç Rusiya kəşfiyyat xidmətlərindən alınan məlumatlara istinadən müxalifəti Qərb qüvvələrinin köməyi ilə çevriliş hazırlamaqda ittiham edib. Sonra Serbiyanın Baş naziri Miloş Vuçeviç bildirib ki, "Serbiyada "rəngli inqilablar" olmayacaq".

Eyni məsələ Serbiyanın Baş nazirinin müavini Aleksandr Vulinin ötən həftə Moskvaya səfəri zamanı əsas mövzulardan biri olub. Məlumata görə, baş nazirin müavini rusiyalı həmkarları ilə Serbiyada "gərginliyin süni şəkildə artmasında xarici qüvvələrin fəal iştirakını" müzakirə edib və "Serbiya rəhbərliyinə kütləvi iğtişaşlar və dövlət çevrilişinə cəhd barədə xəbərdarlıq edən Rusiya təhlükəsizlik xidmətlərinə təşəkkür edib". Öz növbəsində Aleksandr Vulinin Moskvadakı həmsöhbətləri Serbiya rəhbərliyinin Qərblə qarşıdurmada qətiyyətini yüksək qiymətləndiriblər. Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrov bunu birbaşa serb qonağı ilə söhbətində bildirib: "Biz Serbiya Prezidenti Aleksandar Vuçiçin və onun bütün komandasının bu cəhdlərə qarşı durmaqda, Qərbi qıcıqlandıran prinsipləri qorumaqda qətiyyətini yüksək qiymətləndirdik".

Ancaq Vaşinqton məsələ ilə bağlı səsləndirilən ittihamları qəbul etmir. Dövlət Departamenti bildirib ki, ABŞ-nin Aleksandr Vulinlə bağlı mövqeyi "hamıya məlumdur". Onlar xatırladıblar ki, Serbiyanın əsas kəşfiyyat xidməti BIA-nın keçmiş rəhbəri, indi isə baş nazirin müavini keçən ilin iyul ayından Amerika sanksiyaları altındadır, o cümlədən "Rusiya ilə əlaqələrə görə qadağalarla üzləşib". Avropa İttifaqı da öz mövqeyini bildirib. Dövlət Departamentinin bəyanatından bir gün əvvəl Brüssel Serbiyaya xəbərdarlıq edib ki, Rusiya ilə əlaqələri saxlamaq Aİ dəyərləri və Avropaya inteqrasiya prosesi ilə bir araya sığmır.

Bununla belə, Serbiya Prezidenti Aleksandar Vuçiç ölkədəki etirazların Qərb tərəfindən maliyyələşdirildiyi iddiasından geri çəkilmir: "Son üç gün ərzində müxtəlif siyasi QHT-lər tərəfindən ölkəmizə nə qədər pul göndərildiyini diqqətlə öyrənirəm. Bu və son illərdə rekord məbləğlər alınıb, söhbət on və yüz milyonlarla avrodan gedir". Aleksandar Vuçiç ötən şənbə günü hökumət üzvlərinə zarafatla bu daxilolmaların birbaşa xarici investisiya hesab edilməsini təklif etdiyini də açıqlayıb: "Biz bu məsələdə rekordçu olacağıq".

Xatırladaq ki, avqustun 10-da Serbiya paytaxtının küçələrinə 27 minə qədər insan çıxıb. Onlar ölkədə litium hasilatına qarşı çıxırlar. Söhbət Avstraliya–Britaniya konserni "Rio Tinto"nun mədən layihəsindən gedir. Avqustun 11-i axşam saatlarında minə yaxın insan Serbiya Nazirlər Kabinetinin binası yaxınlığında nəqliyyatın hərəkətini kəsib və etiraz aksiyalarını davam etdirib.

Əslində, Serbiya hökumətinin narahatlığı əbəs yerə deyil. Qərbin müəyyən institutlarının postsovet ölkələrində, eləcə də keçmiş Varşava bloku üzvlərində QHT-ləri fəal şəkildə maliyyələşdirildiyi heç kimə sirr deyil. Təcrübə göstərir ki, Qərb institutları qanuni prosedurlara, ümumiyyətlə, hörmət etmir və statusu bilinməyən QHT-lərə, təşkilatlara və qurumlara müxtəlif yollarla vəsait ayırırlar. Ona görə də, cənab Vuçiçin Qərbə qarşı ittihamlarında qeyri-adi heç nə yoxdur.

*SE LAY*
*XQ*

Reportaj

# Bakıda "Formula–1" hazırlıqları

**Təxminən iyirmi gün sonra Azərbaycan yenidən dünyanın diqqət mərkəzində olacaq. Çünki 13-15 sentyabr tarixlərində ralli həvəskarları möhtəşəm "Formula 1" Qran-Prisinin həyəcanını bir daha yaşayacaqlar.**



Artıq səkkiz ildir ki, ölkəmizdə "Formula–1" yarışları keçirilir. Azərbaycanın evsahibliyi etdiyi digər beynəlxalq idman yarışları kimi "Formul–1"-ə də yüksək səviyyədə hazırlaşır.

Şəhərdə həyata keçirilən hazırlıq işləri ilə yaxından tanış olmaq üçün üz tutduq mərkəzi küçələrə. "Formula–1"-ə qızğın hazırlıq prosesinin getdiyinin şahidi olduq. Artıq təhlükəsizliklə bağlı beton dirəklər quraşdırılıb, məhdudlaşdırıcı sədlər çəkilib. Yarışları yaxından izləmək üçün tribunalar təşkil olunub, küçələr müxtəlif iri reklam lövhələri və yol nişanları ilə bəzədilib. Yarış zamanı piyadaların yolu rahatlıqla keçə bilmələri üçün yerüstü piyada keçidləri də quraşdırılıb.

"İçərişəhər" metrosunun yaxınlığında bir neçə yaşlı sakinin "Formula–1" yarışları haqqında müzakirə apardıqları diqqətimizdən yayınmadı. Heç fürsəti əldən verməyib yaxınlaşdıq. Tanış olduq. "Formula–1" yarışları haqqında bizə də fikirlərini bildirmələrini xahiş etdik. 65 yaşlı Yusif Babayev bu cür yarışların keçirilməsinin ölkəmiz üçün önəm daşıdığını və paytaxta çoxlu turist gəlməsi baxımından da əlverişli olduğunu dedi:

– Bu yarışların keçirilməsi məni çox sevindirir. Çünki dünyanın diqqəti Azərbaycana yönəlir. Bu da ölkəmizin daha çox tanınmasına şərait yaradır. Onu da əlavə




edim ki, bu cür yarışlar, həmçinin paytaxtımıza çox sayda turist cəlb edir. Bu həm də onu göstərir ki, biz qonaqpərvər millətik.

Digər bir yaşlı sakin isə fikrini belə izah etdi:

– Düzdür, belə tədbirlər şəhər sakinləri və sürücülər üçün müəyyən çətinliklər yaradır. Lakin, onu da nəzərə almaq lazımdır ki, dünyamiqyaslı yarışların keçirilməsi ölkəmiz üçün hər cəhətdən faydalıdır.

Qeyd edək ki, "Formula-1" dünyada ən çox televiziya tamaşaçısı toplayan yarışlardan sayılır. Ümid edirik ki, budəfəki yarış da ölkəmizə gələn qonaqların və yerli sakinlərin yaddaşında unudulmaz izlər qoyacaq.

*Fidan SALMANOVA,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# Çabahar limanı Ermənistanın istəyinə uyğun deyil

**Bu yaxınlarda Hindistan və İran arasında Çabahar limanının gələcək inkişafı haqqında saziş imzalanıb. Saziş Hindistanın xarici işlər naziri Subrahmanyam Caishankarın Tehrana səfəri zamanı İranın yollar və şəhərsalma naziri Mehrdad Bazrpaş ilə imzalanıb. Nazirlər Çabahar limanı ilə bağlı uzunmüddətli əməkdaşlıq çərçivəsinin yaradılmasına dair ətraflı və "məhsuldar müzakirə" aparıb, İran və Hindistan arasında limanın inkişafı ilə bağlı may ayında imzalanmış sazişi başa çatdırmaq barədə razılığa gəliblər.**

Sazişə görə, Çabahar limanı 10 il müddətinə Hindistanın icarəsinə verilir. 10 ildən sonra razılaşma yenilənəcək və limanın idarəçiliyi Hindistanda qalacaq. Çabahar limanı İranın Hind okeanına çıxışı olan limandır. Onu idarəçiliyə götürməklə Hindistan Cənubi Qafqaz, Orta Asiya, Əfqanıstan, Rusiya və Avropa ilə ticarət əlaqələri qurmaq istəyir. Bu liman Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizində də aparıcı rol oynayır. Rusiya və Avropadan göndərilən yüklər Azərbaycan və İran ərazisindən tranzit olaraq Çabahar limanına, oradan isə Hindistanın Mumbai limanına çatdırılacaq. Əks istiqamətə də yüklər İran və Azərbaycan ərazisindən keçərək.

olaraq bildirib ki, Ermənistan və Hindistan arasında iqtisadi əməkdaşlıq böyük inkişaf potensialına malikdir. "Ticarət dövriyyəsinin strukturu və həcmləri hələ də iki ölkə arasında iqtisadi əməkdaşlığın real imkanlarına uyğun gəlmir. Ermənistan–Hindistan ticarət dövriyyəsinin inkişafında mühüm amil isə logistika probleminin həlli ola bilər. Bu baxımdan İranın Çabahar limanının əhəmiyyəti bizim üçün xüsusilə önəmlidir. İrəvan Nyu-Dehli ilə iqtisadi əməkdaşlığın dərinləşməsində maraqlıdır və iqtisadi əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi, eləcə də uzunmüddətli əməkdaşlığın formalaşdırılması istiqamətində qarşılıqlı addımlar atır, ilk



Ermənistan da Hindistanla İran arasındakı son razılaşmadan yararlanmaq istəyir. İrəvan Hindistandan yola çıxan yüklərin bir hissəsinin Ermənistan üzərindən Avropaya daşınacağına ümid edir. O uzun illər boyu bütün regional əhəmiyyətli layihələrdən kənarda qalıb. İndi iqtisadi problemlərini həll etmək üçün regional və beynəlxalq əhəmiyyətli layihələrdə iştirakını ön plana çıxarır. Ermənistan həm də hərbi-siyasi əməkdaşlıq qurmuş olduğu Hindistan və ənənəvi himayəçisi olan İranın potensialından istifadə etməyə çalışır. Ermənistan İqtisadiyyat Nazirliyinin baş katibi Haykaz Nəsibyan "Armenpress"in sualına cavab

növbədə dünyanın 10 ən mühüm limanından biri olan Çabaharın operatoru olmaq niyyətindədir".

Bununla bağlı, baş nazir Nikol Paşinyan ötən ilin mayında beynəlxalq multimodal (yüklərin hərəkətini asanlaşdırmaq, daha sürətli və daha səmərəli etmək üçün müxtəlif nəqliyyat vasitələrinin birləşməsi) yükdaşıma marşrutunun işə salınması və Çabahar limanında operator fəaliyyətinin həyata keçirilməsini əlaqələndirəcək işçi qrupunun yaradılması haqqında qərar imzalayıb. Ermənistanda hesab edirlər ki, Çabahar limanının istifadənin Ermənistanın ticarət potensialını artıracaq. Bu,



ölkənin Hindistana, eləcə də digər Asiya ölkələrinin perspektivli bazarlarına etibarlı çıxışı olacaq. Limanın istifadəyə verilməsi həm də Fars körfəzi ölkələri ilə ticarət dövriyyəsini artıracaq. "Əsas məqsəd təkcə Hindistandan idxalı inkişaf etdirmək deyil, həm də istehsalçılarımızın Hindistan bazarına çıxmasına şərait yaratmaqdır". Bunu İqtisadiyyat nazirinin müavini Narek Teryan bildirib: "Biz iki ölkə arasında əlaqələrin inkişafında böyük potensial görürük. Xüsusilə, 2023-cü ildə qarşılıqlı ticarətin həcmi 7 faizdən çox artaraq 380 milyon dollara çatıb. Gələcəkdə isə qarşılıqlı ticarət dövriyyəsinin həcmini bir neçə dəfə artırmaq olar. Aydındır ki, bu, Çabahar limanı və onun bir hissəsi olan dəhlizlə mümkündür".

Buna nail olmaq üçün Ermənistan beynəlxalq tranzit yükdaşıma marşrutlarında iştirakını təmin etməlidir. Bu baxımdan Ermənistanın Şimal–Cənub Beynəlxalq Nəqliyyat dəhlizi layihəsində fəal iştirakı vacibdir. Üstəlik, Ermənistan Hindistan və İranı Gürcüstan və Qara dəniz vasitəsilə Avropa ilə, eləcə də Avropanı Hindistanla birləşdirəcək alternativ dəhliz təklif edərək, alternativ yükdaşıma marşrutunun formalaşmasında mühüm iştirakçı və icraçı olmaq istəyir. Bu barədə iranşünas alim Qohar İskəndəryan bildirib: "Bu, çox vacib layihədir, onun reallaşması üçün hər şey edilməlidir. Dəhlizin bir qolunun Ermənistandan keçməsi üçün səy göstərilməlidir. Bu proqram təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan vacibdir. Hesab edirəm ki, bu limandan tranzit üçün, o cümlədən Ermənistandan keçməklə, Qara dəniz regionundan istifadə etmək potensialı mövcuddur".

Bunun üçün isə Ermənistanda infrastruktur yenilənməli, yolları genişlənməli, dəmir yolları tikilməlidir. O zaman bu marşrut üzrə yükdaşımalar və Ermənistanın gəliri artacaq, o, regional nəqliyyata çevriləcək. İlk baxışdan çox cəlbedici görünür. Bəs infrastrukturla bağlı vəziyyət nə yerdədir? Bəri başdan deyək ki, dəhlizin Ermənistandan keçəcək qolunun işlək vəziyyətə gətirilməsi üçün infrastruktur cəhətdən problemlər var. Belə ki, Ermənistanın cənubundakı Sünik vilayəti ilə İran arasında birbaşa dəmir yolu əlaqəsi yoxdur. Sovet dövründə Ermənistandan gələn dəmir yolu Naxçıvandan keçərək Təbriz–Culfa dəmir yolu ilə birləşirdi. Bu dəmir yolu ilə o dönəmdə təxminən 4 milyon ton yük daşınırdı. I məqalədə qeyd etdiyim kimi hazırda yolun çox hissəsi sökülüb. Onun qalan hissəsi isə yenidən bərpa olunmalıdır. Əgər Ermənistan ərazisindən keçən dəmir yolu Şimal–Cənub dəhlizinin Rəşt–Astara hissəsinin tikintisindən daha tez bərpa olunarsa, bu yolla Rusiya ilə İranın cənub limanları arasında dəmir yolu əlaqəsi yaranacaq. Bu isə indiki reallıqda mümkün deyil. İlk növbədə Ermənistan Azərbaycanla sülh müqaviləsi bağlamalı, Zəngəzur dəhlizi işlək vəziyyətə gətirilməli, ərazisində sökülmüş dəmir yolu xətləri yenidən çəkilməlidir. Ermənistana bu xərcləri qarşılamaq üçün investisiya qoymaq istəyən xarici sərmayədarlar yoxdur.

Şimal–Cənub dəhlizinin tam olaraq fəaliyyətə başlaması isə Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun tikilməsindən asılıdır. Rəşt-Astara dəmir yolu beynəlxalq əhəmiyyət daşıdığı üçün onun tikintisi prioritet məsələdir və uzunluğu 164 kilometr olan bu yolun inşasının 2028-ci ilə qədər başa çatdırılması planlaşdırılır. O, Azərbaycan ilə İranın dəmir yolları sistemlərini birləşdirəcək. Həmin vaxtadək Çabahar–Zahidan dəmir yolu da işlək vəziyyətdə (bu il istifadəyə veriləcək) olacaq. Hər iki dəmir yolunun tikintisi başa çatdıqdan sonra bu limandan yük axınını artırmaq mümkün olacaq.

Nəticədə dəhlizin əsasını təşkil edən dəmir yolu ilə Avropa və Asiya arasında yükdaşımalar həyata keçiriləcək. Cənub Şərqi Asiya ölkələrindən yüklər İran və Azərbaycan ərazisindən Rusiyaya və Avropaya daşınacaq. Digər tərəfdən Azərbaycanla Gürcüstanı birləşdirən dəmir yolu da mövcuddur ki, Hindistandan çıxan yüklərin Azərbaycan–Gürcüstan dəmir yolu ilə Qara dəniz limanlarına, oradan da Avropa ölkələrinə nəqlini reallaşdırmaq mümkündür. Ermənistan ərazisində isə dəmir yolu xəttinin nə vaxt istismara verilməsi yaxın perspektivdə məlum deyil.

Azərbaycanın yüklərin yük maşınları ilə daşınmasında da imkanları Ermənistandan genişdir. Ermənistanda avtomobil yolu dağlıq ərazilərdən keçir. Qış mövsümündə istifadəsi çətinləşir. Bu ərazidə işlək nəqliyyat xətlərinin tikilməsi və ya bərpası böyük xərc tələb edir. Magistralın Gorus və Qafan şəhərləri arasındakı yolun bir hissəsi Azərbaycanın beynəlxalq cəhətdən tanınmış hüdudları daxilinə düşdüyündən 2020-ci ilin dekabrından Azərbaycan silahlı qüvvələrinin nəzarəti altındadır.

İrəvan Ermənistan–İran tranzitini asanlaşdırmaq, Bavra (Gürcüstan sərhədi yaxınlığında) ilə Mehri (İran sərhədi yaxınlığında) arasında əlaqə yaratmaq məqsədilə yeni Şimal–Cənub avtomobil yolunun inşasına başlayıb. Onun tikintisinin 2028-2030-cu illərdə tamamlanması nəzərdə tutulur. Lakin artıq işlərin gedişi göstərir ki, yol heç 2035-də də hazır olmayacaq.

Beləliklə, Hindistandan çıxan yüklərin Rusiya və Avropaya, həm də əks istiqamətdə Azərbaycanın mövcud nəqliyyat xətləri ilə daşınması daha realdır. Eyni zamanda, Azərbaycanla Gürcüstanı birləşdirən dəmir yolu da mövcuddur ki, Hindistandan çıxan yüklərin Azərbaycan-Gürcüstan dəmir yolu ilə Qara dəniz limanlarına, oradan da Avropa ölkələrinə nəqlini reallaşdıra bilər.

*P.ƏFƏNDİYEV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 178 (30582) 21 avqust 2024-cü il, çərşənbə

## Gündoğan “Mançester siti”yə qayıdacaqmı?




İspaniyanın "Barselona" klubunun futbolçusu İlkay Gündoğan karyerasını yenidən “Mançester siti”də davam etdirə bilər. Bu barədə məşhur insayder Fabritsio Romano sosial şəbəkə hesabında paylaşım edib. Onun sözlərinə görə, "şəhərlilər"in baş məşqçisi Xosep Qvardiola yarımmüdafiəçinin komandaya qayıtmasına razılıq verib. Artıq tərəflər arasında ilkin danışıqlar da gerçəkləşib. Gündoğanı Səudiyyə Ərəbistanı və Qətər təmsilçiləri də heyətinə qatmaq niyyətindədir.

Qeyd edək ki, İlkay Gündoğan 2016-2023-cü illərdə “Mançester siti”nin formasını geyinib.

## “Qalatasaray” “Yanq Boyz”la Yılmazsız oynayacaq



Türkiyənin "Qalatasaray" klubu İsveçrədə "Yanq Boyz"a qarşı keçirəcəyi UEFA Çempionlar Liqasının pley-off mərhələsinin ilk oyununa itki ilə çıxacaq. Bu barədə İstanbul təmsilçisinin mətbuat xidməti məlumat yayıb.

Barış Alper Yılmaz sözügedən matçda komandasına kömək edə bilməyəcək. Ürəkbulanma, qusma və qida zəhərlənməsi aşkarlanan 24 yaşlı vinger səfərə yollana bilməyib.

Qeyd edək ki, bu gün təşkil olunacaq "Yanq Boyz" - "Qalatasaray" oyunu Bakı vaxtı ilə saat 23:00-da start götürəcək. Cavab matçı bir həftə sonra reallaşacaq.

*PÜNHAN*
*XQ*

## “Zəfər”in “Təhsil” düşərgəsi



**Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin dəstəyi ilə şəhid övladları üçün “Təhsil” adlı yay düşərgəsi keçirilir.**

“Təhsil” Respublika İdman Mərkəzinin “Zuğulba” Tədris-İdman Bazasında təşkil olunan düşərgədə ölkənin müxtəlif şəhər və rayonları, o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə 45 məktəbli iştirak edir. Düşərgə 19–25 avqust tarixlərini əhatə edir.

Düşərgədə uşaqlar üçün ustad dərsləri, intellektual oyunlar, idman yarışları, viktorina, konsert və digər əyləncəli proqramlar təşkil olunur.

Yay düşərgəsinin təşkilində məqsəd məktəblilərin fiziki və mənəvi inkişafını təmin etmək, onların asudə vaxtlarını maraqlı və əyləncəli keçirmələrinə və yeni dostluq əlaqələri qurmalarına dəstək olmaq, uşaqlara yeni bacarıqlar aşılamaqdır.

*XQ*

# Azərbaycanın ilk kaskadyoru

**Onlar çox maraqlı, həm də təhlükəli peşənin sahibləridirlər. Bu təhlükəyə görə kaskadyorları minaaxtaranlara bənzədənlər də var. Azərbaycanda kaskadyorluğun tarixi elə də qədim deyil. Bu ifadə leksikonumuza ötən əsrin 80-ci illərinin sonlarında gəlib. İlk kaskadyorumuz Əli Məmmədov olub. Onunla özülünü qoyduğu sahənin bugünündən və gələcəyindən söhbət etdik.**





C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının ilk peşəkar kaskadyoru, Əməkdar mədəniyyət işçisi Əli Məmmədovun arzusu Azərbaycanda kaskadyorluq məktəbi yaratmaqdır.

**– Bilirik ki, uşaqlıqdan peşəkar idmançı olmusunuz. Sonradan rəssamlıq məktəbində təhsil almısınız. Bəs, necə oldu kaskadyor oldunuz?**

– Haqlısınız. İdmanın çox növü ilə məşğul olmuşam. Marafon, voleybol, basketbol, futbol... hamısına getmişəm. Həm də çox dəcəl uşaq idim, həmişə istəyirdim harasa dırmaşım. Təhlükəli yerlərə çıxırdım, hərdən zədə alırdım, amma sağalan kimi yenə davam edirdim. Özüm üçün ekstrim kino səhnələri qururdum, obraz yaratmağa çalışırdım, amma ağlıma gəlməzdi ki, bu, elə kaskadyorluqdur. Təsəvvür edirdim ki, aktyor kimi kinoya çəkilirəm. Rəssamlıq məktəbinin sonuncu kursunda oxuyurdum. Bir gün dərsdən gələndə gördüm ki, Nizami küçəsində film çəkilişləri gedir. Yaxınlaşıb soruşdum ki, aktyorluq bacarığım var, kimə müraciət edim? Dedilər yaxınlaşın “Azərbaycanfilm” kinostudiyasına, sizi çəkilişlərə cəlb edərik. Kaskadyorluğa yolum belə başlandı.

**– Belə çıxır ki, kaskadyorluq təhsilini idmanda almısınız?**

– Bəli. Kaskadyor kimi işə başlayandan sonra müxtəlif tryukları məşq etməklə püxtələşdim. Qırğızıstanda Kaskadyorlar Assosiasiyasının nəzdində təlimlərə getdim, peşəkar kaskadyor lisenziyası aldım.

**– Nə vaxtsa bu peşəni seçdiyinizə görə peşman olmusunuzmu?**

– Heç vaxt peşman olmamışam. Yeni filmlər, yeni mövzular, fərqli tryuklar, ...işim çox maraqlıdır. Təbii ki, həm də təhlükəlidir. Bu işi sevərək görmək lazımdır. O zaman təhlükəsi də ötüb keçir. İnsan gərək işindən zövq alsın. Zövq alaraq gördüyün işi həm də peşəkarlıqla yerinə yetirəndə nəticə maraqlı olur.

**– Filmoqrafiyanızda maraqlı ekran əsərləri var. Onların hansında çəkildiyiniz epizodu unuda bilmirsiniz?**

– Unudulmaz epizodlar çoxdur. Ceyhun Mirzəyev “Fəryad” filmini çəkəndə mən Qarabağda döyüşlərdə idim. Rəhmətliyin xahişi ilə mənə 15 günlük məzuniyyət verdilər. Çəkilişlər o vaxtkı Goranboy rayonunda aparılırdı. Çətin şəraitdə işləyirdik, işıq, qaz yox, hər tərəf darmadağın. Amma yaradıcı heyət böyük həvəslə, yanğı ilə işləyirdi. Elə bil, bir cəbhə də çəkiliş meydanında açılmışdı. Biz onu düşünərək işləyirdik. Rejissor Teymur Bəkirzadə ilə bir neçə film işləmişik. Bir filmdə xüsusi təyinatlı zabit təyyarədən kilsənin damına, oradan da yerə hoppanmalı idi. Söhbət 90-cı illərdən gedir, o vaxt texniki imkanlar aşağı səviyyədə idi. Tullanırdım, amma yerə çatmamış qoruyucu ip məni saxlayırdı. Çox təhlükəli məqamlar yaşadım, hər dəfə ip məni hesablanmış məsafədən yuxarıda saxlayırdı. Havada asılı qalmaq çox təhlükəlidir. Sonuncu kadrda, üstəlik, yaxınlıqda oynayan kənd uşaqları başladılar məni sapandla vurmağa. Bunu heç kim görmürdü, qışqırıram ki, uşaqları qovun, amma səsimi eşitmirdilər. Kranın qarmağından bərk-bərk yapışmışam o da barmaqlarımı kəsir. Kilsənin damındakı dəmirlərin kənarları bədənimi kəsmişdi. O çəkiliş yadıma düşəndə sağ qalmağıma şükür edirəm.

**– Kaskadyorların oyunundan onları tanımaq olurmu? Məsələn, “Cavad xan” filmində kimliyiniz hansısa əlamətlə seçilirmi?**



– Yox, kaskadyoru fərqləndirmə nişanı deyilən bir şey yoxdur. Filmdə bizi tanımaq olmur. Axı, bir filmdə neçə epizodda çəkilirik, özümüzü fərqli görkəmlərə salırıq. Özüm göstərməsəm ki, filan yerdə çəkilən mənəm, heç kim tanımaz. Əsas odur ki, hərəkətlərimiz yadda qalsın.

**– Xarici filmlərdə çəkilməyə dəvətlər almısınız. Hansı ölkələrdə və hansı filmlərdə işləmisiniz?**

– Amerika, Türkiyə, Gürcüstan, Almaniya, Fransa filmlərində işləmişəm. Hind filmlərində çox tryuklər etmişəm. Rusiya filmlərində də dəfələrlə çəkilmişəm. Özbəkistanda öz qrupumla bərabər işləmişik. İndi də çəkilirəm. Əsas məqsədim bu sahəni Azərbaycanda inkişaf etdirməkdir.

**– Filmdə əvəzlədiyiniz məşhur aktyorlar kimlər olub?**

– Xalq artisti Fəxrəddin Manafovu bəzi filmlərdə əvəz etmişəm. Amerika filmlərində tanınmış aktyorların əvəzinə oynamışam. Rüstəm İbrahimbəyovun senarisi ilə Hollivudda çəkilmiş “Dağıdılmış körpü” filmində bir neçə məşhur aktyorun əvəzinə tryukları yerinə yetirmişəm...

**– Bu gün “Azərbaycanfilm”də kaskadyorluq hansı səviyyədədir?**

– Azərbaycan kinosu özü hansı səviyyədədirsə kaskadyorluq sənəti də elədir. Son vaxtlar az da olsa film çəkilir, amma orda kaskadyora ehtiyac olmur. Filmlərin büdcəsi kasaddır, tryuk səhnələri isə böyük büdcəli filmlərdə olur. İstərdim ki, Azərbaycanda tammetrajlı, tarixi mövzuda filmlər çəkilsin. Tariximiz lazımi qədər ekrana gətirilməyib. Halbuki, buna çox böyük ehtiyac var. Hazırda qrupumla xarici ölkələrdə, əsas da Hindistan filmlərində işləyirik.

**– Sizi Azərbaycanın ilk peşəkar kaskadyoru kimi tanıyırıq. Gələn il 60 yaşınız tamam olacaq. Ötən illərdə öz məktəbinizi yarada bilmisinizmi?**

– Ömrümün 36 ilini bu sahəyə həsr etmişəm. Yenə öz üzərimdə işləyirəm, çalışıram ki, Azərbaycan kaskadyorluq sənəti başqa dövlətlərdəkindən geri qalmasın. Heç geri qalmırıq da. Amma onların maddi imkanları yüksək olduğundan istənilən texnikanı əldə edə bilirlər. Mən isə bunun üçün illərlə çalışıram. Qazandığım qonorarın çoxunu avadanlığa verirəm ki, Azərbaycanda bu sənət axsamasın. İllərdir öz məktəbimi açmağa çalışıram. Bunun üçün ayrıca ərazi, məktəbin sahəsi, avadanlığı olmalıdır. Yenə ümid edirəm ki, nə vaxtsa kaskadyorlar məktəbi açacam. Bu dünyadan heç kim özü ilə heç nəyi aparmır. Kaskadyorlar məktəbini yarada bilsək, Azərbaycan üçün iş görmüş olarıq. Hər kəs öz sahəsində bunun üçün çalışmalıdır. Biz getsək də qurduğumuz, gördüyümüz işlər qalsın.

*Ramilə QURBANLI*
*XQ*

## Yenə də Aranda günəşli, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyii Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 21-də Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26° , gündüz 31-36° isti olacaq.**



Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq.Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24° , gündüz 32-37°, dağlarda gecə 13-18°, gündüz 19-24° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*✓ 2017-ci ildə Yeni Azərbaycan Partiyasının Xətai Rayon Təşkilatı tərəfindən Mirheydərli Mirhaşim Mirfaiq oğlunun adına verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## Şokolad: həm fayda, həm dad

**Beyin fəaliyyətinə müsbət təsir edən, yaddaşı və diqqəti yaxşılaşdıran dadlı məhsul var. O, həm də ürək xəstəliyinin inkişaf riskini azaldır. Bu, insana xoş əhvali-ruhiyyə bəxş edən şokoladdır!**



Şokoladın tərkibində sink, maqnezium, fosfor, dəmir, həmçinin həzm prosesini əhəmiyyətli dərəcədə sürətləndirən liflər var. Bu da qan dövranını da yaxşılaşdırır. Tərkibindəki maddələr ürək xəstəliklərinin inkişaf riskini azaldır. Həkimlər hesab edirlər ki, şəkər xəstəliyinin qarşısını almaq üçün şokolad yemək lazımdır.

Bundan əlavə, bu ləzzətdən istifadə edərkən xoşbəxtlik hormonu istehsal olunur. Şokolad əhvalınızı yüksəldə və depressiyadan xilas edə bilər. O, həm də enerji verir.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Əlibala Məhərrəmzadə, Ramiz Qusarçaylı, İttifaq Mirzəbəyli, Məsaim Abdullayev və İmran Bədirxanlı tanınmış şərqşünas alim, şair-tərcüməçi

**ŞAHİN FAZİL FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3685
SİFARİŞ 1867
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00